**AZƏRBAYCAN TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI KAFEDRASI

İndeks UOT82.0:801.6:82-1/-9, 82-1
Dövlət qeyd. 0106AZ00510

**«TƏSDİQ EDİRƏM»**
Elmi İşlər üzrə prorektor
________ k.e.d., prof.İ.Ə.Əliyev
________________ 2008-ci il

Klassik Azərbaycan poeziyasının sənətkarlıq məsələləri
(2006-2008-ci illərin tam hesabatı)

ETH-nin rəisi: _____________ İ.N.Əliyeva
B.e.d.,prof _____________ 2008-ci il

ETL-nin rəhbəri: ______________ N.A.Paşayeva
F.e.d., prof. _______________ 2008-ci il

**BAKI – 2008**

# FİLOLOGİYA FAKÜLTƏSİ

Klassik Azərbaycan ədəbiyyatı kafedrasının
2006-2008-ci illər ərzində elmi-tədqiqat işlərinin
yerinə yetirilməsi haqqında

**HESABATI**

# MÜNDƏRİCAT

**İcraçıların siyahısı ..…………………………………………….səh.4**

**Referat ………………………………………………………….səh.5-7**

**Giriş …………………………………………………………….səh.8**

**Azərbaycan poeziyasının sənətkarlıq məsələləri:………………...səh.9-45**

**Nəticə……………………………………………………………səh.46**

**Ədəbiyyat………………………………………………………..səh.47-51**

**Əlavələr…………………………………………………………**

**İCRAÇILARIN SİYAHISI**

| | Vəzifə | Elmi dərəcə | Elmi ad | İmza | Adı, ata adı, soyadı | Ştat vahidi |
|---|---|---|---|---|---|---|
| **1** | kaf.müd. | f.e.d. | professor | | Paşayeva Nərgiz Arif qızı | 1 |
| **2** | professor | f.e.d. | professor | | Namazov Qara Mustafa oğlu | 1 |
| **3** | professor | f.e.d. | professor | | Mütəllimov Təhsin Mütəllim oğlu | 1 |
| **4** | professor | f.e.d. | professor | | Əlimirzəyev Xalid Əlimirzə oğlu | 1 |
| **5** | professor | f.e.d. | professor | | Babazadə Baba Hüseynəli oğlu | 1 |
| **6** | dosent | f.e.n. | dosent | | İbrahimov Sənan Məmməd oğlu | 1 |
| **7** | dosent | f.e.n. | dosent | | Məmmədzadə Bəxtiyar Məmməd oğlu | 1 |
| **8** | dosent | f.e.n. | dosent | | Salmanova Zahirə Bilal qızı | 1 |
| **9** | dosent | f.e.n. | dosent | | Əliyeva Lalə Sabir qızı | 1 |
| **10** | dosent | f.e.n. | dosent | | Vəliyev Məhərrəm Tahir oğlu | 1 |
| **11** | f.e.n. | f.e.n. | b/m | | Hüseynova Jalə Firidun qızı | 1 |
| **12** | f.e.n. | f.e.n. | b/m | | Qocayeva Sevinc Malik qızı | 1 |
| **13** | f.e.n. | f.e.n. | dosent | | Bayramlı Məti Osman oğlu | 1 |
| **14** | f.e.n. | f.e.n. | dosent | | Həsənova Mətanət Oruc qızı | 0,5 |
| **15** | f.e.n. | f.e.n. | müəl. | | İsmayılova Yeganə Nəhmətulla qızı | 0,5 |
| **16** | f.e.n. | f.e.n. | b/m | | Həsənov Telman Həsən oğlu | 0,25 |
| **17** | baş labor. | - | - | | Calalova Sevər Elxan qızı | 1 |
| **18** | baş labor. | - | - | | Hüseynova Sevda Fikrət qızı | 1 |
| **19** | laborant | - | - | | Qədimova Xuraman Abuzər qızı | 1 |

## REFERAT

Klassik Azərbaycan ədəbiyyatı kafedrasında 2006-2008-ci illərdə 16 nəfər elmi-tədqiqat işi ilə məşğul olmuşdur. Onların elmi-tədqiqat işi aşağıdakı mövzuları əhatə edir. Bu mövzular aşağıdakılardan ibarətdir.

**F.e.d., prof. N.A.Paşayeva**

**F.e.d., prof. Q.M.Namazov**

1. Azərbaycan şeirində xalq qəhrəmanlarının obrazları (II hissə) - 2006
2. A.Şaiqin poemaları - 2007
3. A.Şaiqin uşaq əsərləri - 2008

**F.e.d., prof.T.M.Mütəllimov**

1. N.Nərimanovun nəsrində bədii təsvir və təhkiyə- 2006
2. C.Məmmədquluzadə dramaturgiyasında monoloq və dialoq- 2007
3. Klassik dramaturgiyamızda remarka problemi- 2008

**F.e.d., prof. X.Ə.Əlimirzəyev**

1. C.Məmmədquluzadənin «Anamın kitabı» əsərində ziyalı obrazı- 2006
2. C.Məmmədquluzadə dramaturgiyasında ideal və tragikomik qəhrəman- 2007
3. S.M.Qənizadənin «Məktubati Şeyda bəy» romanında məktəb və müəllim probleminin qoyuluşu- 2008

**F.e.d., prof. B.H.Babazadə**

1. Epik növün janrları- 2006
2. Yaradıcılıq prosesi- 2007
3. Ədəbiyyat nəzəriyyəsinin tarixi və metodologiyası- 2008

**F.e.d., prof. S.M.İbrahimov**

1. Klassik ədəbiyyatda vəhdəti vücud mövzusu (XII əsrə qədər) - 2006
2. Klassik ədəbiyyatda vəhdəti-vücud mövzusu (XVI əsrə qədər») - 2007
3. Klassik ədəbiyyatda vəhdəti-vücud mövzusu(XX əsrə qədər) - 2008

**F.e.n., dos. Z.B.Salmanova**

1. Ə.Qəmküsarın felyetonlarında sənətkarlıq- 2006

2. Ə.Nəzmi felyetonları- 2007

3. B.Abbaszadənin satiraları- 2008

**F.e.n., dos. B.M.Məmmədzadə**

1. Mirzə Ələsgər Novrəs anadilli şeirin vəzni- 2006

2. Mirzə İsmayıl Qasir anadilli şeirinin vəzni- 2007

3. Hacıağa Fəqir Ordubadinin anadilli şeirinin vəzni- 2008

**F.e.n., dos. L.Ə.Əliyeva**

1. Orta əsrlər Azərbaycan ədəbiyyatında nəsr- 2006

2. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında nəsr- 2007

3. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında hekayə janrının poetikası- 2008

**F.e.n., dos. M.T.Vəliyev**

1. «Dastani Əhməd-Hərami» poeması- 2006

2. Yusif Məddahın «Vərqa və Gülşa» poeması- 2007

3. S.Fəqihinin «Yusif və Züleyxa» poeması- 2008

**F.e.n., dos. M.O.Bayramlı**

1. Q.Zakir poeziyasının tədrisinin filoloji aspektləri- 2006

2. S.Ə.Şirvani realizmi tədrisinin filoloji aspektləri- 2007

3. M.Ə.Sabir realizminin tədrisinin filoloji aspektləri- 2008

**F.e.n., dos. M.O.Həsənova**

1. Azərbaycan maarifçiliyi və milli özünüdərk- 2006

2. M.F.Axundov və milli özünüdərk- 2007

3. N.Vəzirov və milli özünüdərk- 2008

**F.e.n., b\m. T.H.Həsənov**

1. C.Məmmədquluzadənin dramaturgiyası «Ölülər» - 2006

2. H.Cavidin dramaturgiyası- 2007

3. H.Cavidin «Şeyx Sənan» faciəsi- 2008

**F.e.n., b\m. J.F.Hüseynova**

1. H.Cavid lirikasının ideya-mövzu xüsusiyyətləri- 2006

2. M.Ə.Sabir yaradıcılığının ideya-mövzu xüsusiyyətləri- 2007

3. Ə.Nəzmi yaradıcılığının ideya-mövzu xüsusiyyətləri- 2008

**F.e.n., b\m. S.M.Qocayeva**

1. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında qəhərmanlıq motivləri- 2006

2. Məsihi Təbrizinin «Vərqa və Gülşa» əsərində Vərqa aşiq və qəhrəman kimi-2007

3. Məhcur Şirvaninin «Qisseyi-Şirzad» əsərində Şirzad obrazı- 2008

**F.e.n., müəl. Y.N.İsmayılova**

1. «Kitabi-Dədə Qorqud» dastanlarının orta əsr ədəbiyyatına təsiri, o cümlədən yazılı ədəbiyyat ənənələrinin «Kitabi-Dədə Qorqud» eposuna təsiri məsələsinin araşdırılması- 2006

2. «Kitabi-Dədə Qorqud» dastanlarının XX əsr Azərbaycan poeziyasının inkişafına təsirinin öyrənilməsi- 2007

3. «Kitabi-Dədə Qorqud» dastanlarının XX əsr Azərbaycan nəsrinin inkişafına təsirinin öyrənilməsi- 2008

İşlənən bu nəzəri problemdə Azərbaycan poeziyasının sənətkarlıq məsələlərinin qaynaqlarına istinad edərkən yeni tədqiq üslubu elmi işin başlıca mahiyyətini təşkil edir. Elmi iş müəlliflərinin ilkin hesabatı tərtib prinsiplərinə əsaslanmış, giriş, əsas hissə, nəticə, ədəbiyyat və əlavələrdən ibarətdir.

# GİRİŞ

Klassik Azərbaycan poeziyasının öyrənilməsi müstəqillik dövründə yenidən elmi-nəzəri səviyyədə işlənməsi lazım gəlir. Ona görə də qədim dövrdən orta yüzillərin sonuna qədər olan klassik poeziyanın ideya-bədii qaynaqlarını yenidən araşdırıb, onun sənətkarlıq problemlərinin yeni müstəvidə təhlil olunması vacib məsələlərdəndir.

Həmin problem Xaqaninin, Nizaminin, Nəsiminin, Xətainin, Füzulinin, Vaqifin və başqa müəlliflərin yaradıcılığı əsasında araşdırılmış, ideya-sənətkarlıq baxımından təhlil edilmişdir.

Ümumiyyətlə, Klassik Azərbaycan poeziyasının hərtərəfli araşdırılması müasir ədəbiyyatşünaslığın qarşısında duran ən vacib problemlərdən biridir.

Həmin problem kafedranın müəllimləri arasında mövzulara bölünmüş və işlənib başa çatdırılmışdır.

2007-ci ildə Klassik Azərbaycan şeirinin öyrənilməsi davam etdirilmişdir. Ona görə ki, problem çox geniş olduğu üçün mövzunun işlənilməsi davam etdirilmişdir. 2008-ci ildə Klassik Azərbaycan şeirinin müstəqillik dövründə araşdırılması davam etdirilmişdir.

# AZƏRBAYCAN POEZİYASININ SƏNƏTKARLIQ MƏSƏLƏLƏRİ

Azərbaycan ədəbiyyatı tarixi kafedrası üzrə 2006-2008-ci illərdə ştatda olan 16 nəfər əməkdaş elmi-tədqiqat işi aparmışdır. Onların elmi işi aşağıdakı istiqamətlərdə olmuşdur:

N.Nərimanov görkəmli ədib kimi həm mövzu, həm də janr etibarilə maraqlı, orijinal yaradıcılığa malikdir. O, bir sıra pyeslərin, nəsr əsərlərinin və publisist əsərlərin müəllifidir. Elmi işdə əsas tədqiqat obyekti ədibin nəsr əsərləridir. Burada ədibin nəsr əsərlərindən bədii təsvir və təhkiyələrin ideya-bədii xüsusiyyətlərdən bəhs olunur.

Elmi işdə ədibin «Bahadır və Sona» romanı, «Pir» povesti və «Bir kəndin sərgüzəşti» hekayəsi tədqiqata cəlb edilmişdir. N.Nərimanovun nəsr əsərlərindəki bədii təsvirlərdəki dəqiqlik, lakonizm və bədii obrazlılığa aid səciyyəvi misallar göstərilmiş və onun bədii portret yaratmaqda, cazibədar təbiət lövhələri canlandırılmaqda, habelə konkret məkan təsvirlərində nail olduğu uğurlar, həmçinin bəzi zəif cəhətlər nəzərə çatdırılmışdır.

Eyni zamanda N.Nərimanovun orijinal üslublu bir nasir kimi özünəməxsus təhkiyə xüsusiyyətlərindən də geniş bəhs olunmuşdur. Ədibin bədii təhkiyəsindəki ğböyük sadəlik və səmimiyyət, bədii obrazlılıq konkret misallar əsasında təhlil olunmuşdur.

C.Məmmədquluzadənin çoxcəhətli yaradıcılığında pyesləri xüsusi yer tutur. Bu elmi işdə də ədibin pyeslərindəki monoloq və dialoqların dramaturji funksiyası diqqət mərkəzində olmuşdur. Burada ədibin ilk pyesi olan «Çay dəsgahı»dan başlamış bütün səhnə əsərlərindəki monoloq və dialoqların səciffəvi cəhətlərindən bəhs olunmuşdur. Xüsusilə onun komediyalarındakı monoloqların komik səciyyəsi, satira və yumordan istifadə imkanları barədə danışmaqla ədibin satirik istedadı barədə müəyyən təsəvvür yaradılmışdır.

Məlum olduğu kimi C.Məmmədquluzadənin yaradıcılığı barədə, xüsusilə dramaturgiyası haqqında indiyədək xeyli tədqiqat əsərləri yazılmışdır. Bu əsərlərdə mübahisəli fikirlər də az deyildir. Bütün bunlara elmi işdə münasibət bildirilmişdir.

Bu elmi işdə C.Məmmədquluzadənin pyeslərindəki monoloq və dialoqlara aid olan vacib elmi mənbələrə də münasibət bildirilmişdir.

Ədibin «Çay dəsgahı», «Ölülər», «Dəli yığıncağı», «Danabaş kəndinin məktəbi», «Anamın kitabı» və başqa pyeslərinə aid maraqlı misallar nəzərə çatdırılmış və ümumiləşdirilmiş nəticələr söylənilmişdir.

Görkəmli sənətkarların hər birində remarka yazmaq üslubu özünəməxsusdur, fərqlidir. Dəqiq remarka ilə əsərdəki hadisələrin məkanı, xarakteri, zəmanəsi, hətta iştirakçıları haqqında müfəssəl təsəvvür yarada bilmək də dramaturji məharət tələb edir.

Bu tədqiqat işində M.F.Axundov, N.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev və N.Nərimanovun dramaturgiyasına aid remarkalardan bəhs olunmuşdur. Dramaturgiyamızın ilk nümunələri olan M.F.Axundov komediyalarında remarkaların bəzən lazım olduğundan daha müfəssəl verilməsi, dramatik əsərdən daha çox nəsr üslübünün xatırlatması göstərilmişdir. Tədricən remarka yazmaq səriştəsinin başqa dramaturqlar tərəfindən kamilləşməsi də nəzərə çatdırılmışdır. Hər bir dramaturqun əsərlərinin remarkalarında məhz hansı cəhətlərə, əlamətlərə diqqət yetirməsi və remarkada özünəməxsus üsullardan istifadə etməsi əsərlərdən gətirilən konkret misallar əsasında təhlil olunmuşdur. Ehtiyac olduqda bəhs olunan əsərlərin ideya-bədii xüsusiyyətlərindən də danışılmışdır.

Klassik dramaturgiyamızda remarka məsələsinə toxunan elmi mənbələrə münasibət bildirilmişdir. Yeri gəldikcə dramaturgiyada remarka məsələsinə aid nəzəri mülahizələr də söylənilmişdir.

Son üç ildə (2006-2008-ci illər) klassiklərimizin həyatına\. Yaradıcılığına və ədəbi-nəzəri problemlərinə həsr olunmuş 55 çap vərəqi həcmində (850 s.) yeni elmi əsərlərim çap olunmuşdur. Bunlardan birincisi 2006-cı ildə yazdığım və həmin ildə

nəşr olunan XX əsrin böyük sənətkarlarından biri sayılan Mir Cəlal Paşayevin həyatından, şəxsiyyətindən, ədəbi, elmi, redaqoji fəaliyyətindən geniş və ətraflı bəhs edən «Mənəvi borc» adlı (12 ç.v.) monoqrafiyadır.

Ömrü boyu xalqına, vətəninə namusla, ləyaqətlə xidmət etmiş, müasir Azərbaycan ədəbiyyatının və filoloji elminin əsas yaradıcılarından olan Mir Cəlal ədəbi-ictimai fikir tariximizdə yüksək mənəvi-əxlaqi keyfiyyətlərinə, vətəndaşlıq mövqeyinə malik istedadlı yazıçı, görkəmli alim, müqtədir müəllim və maarif xadimi kimi tanınmış, şöhrət qazanmışdır. Onun bir çoz hekayə və romanları artıq ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur.

Mir Cəlal böyük yazıçı, maarifçi, ziyalı, tanınmış alim olmaqla yanaşı həm də son dərəcə nəcib, ali insani keyfiyyətlərin daşıyıcısı idi. Onun bir insan kimi fərdi simasını, şəxsiyyətini, xarakterini müəyyənləşdirən əsas xüsusiyyətlərdən biri, bəlkə də birincisi sadəlik olmuşdur. Hər cür adilikdən, bəsitlikdən uzaq olan bu sadəlik lnun varlığında sırf fitri xarakter daşıyırdı, sadəlikdən alicənablığın, müdrikliyin, təmiz mənəviyyatın, yüksək əxlaqi məziyyətlərin təzahürü kimi meydana çıxırdı. Bu xüsusiyyət-sadəlikdə böyüklük, müdriklik, nəciblik Mir Cəlal müəllimin ümumi həyat tərzi, oturuşu-duruşu, insanlara, ailəsinə, tələbələrinə münasibəti, bütünlükdə bədii, elmi, pedaqoji fəaliyyəti üçün də eyni dərəcədə xarakterik idi.

Mir Cəlal müəllim sadə olduğu qədər də saf, təvazökar, təbii bir şəxsiyyət kimi tanınırdı. Sadəliklə təvazökarlıq, təbiilik onun xarakterinəd daxili daxili vəhdət təşkil edirdi, biri-digərini tamamlayan vahid mənəvi keyfiyyət, əxlaqi məziyyət kimi üzə çıxırdı. O, heç vaxt, heç yerdə səsini qaldırmağı, şəxsiyyətini qabartmağı, özünü tərifləməyi xoşlamırdı. Saflıq, təbiilik, təvazökarlıq onun bütün əməl və düşüncələrinin əsasını, mayasını təşkil edirdi. Onun məddahlıqdan, saxta, yalançı tariflərdən, riyakarlıqdan zəhləsi gedirdi. O, belə yaramaz əməlləri əsil insan üçün əksiklik, naqislik, mənəvi qəbahət hesab edirdi.

Yükçək mənəviyyat sahibi olan Mir Cəlal müəllim sanki dünyaya xeyirxahlıq üçün gəlmişdi. O, sözün əsil mənasında təmənnasız yaxşılıq paylayan idi. O, heç vaxt

etdiyi yaxşılığı xatırlamır, onu harada, nə vaxt, kimə etdiyini belə xatırlamazdı. Yaxşılıq onun xilqətində idi. Yaxşılıq onun üçün məqsəd deyil, heç bir təmənna, əvəz gözləməyən əxlaqi keyfiyyət, mənəvi borc idi. Ona hamı – həmkarları, tələbələri, hətta bütün ailə üzvləri Mir Cəlal müəllim deyirdi. Çünki o adi müəllim deyil, sözün əsil mənasında müəllimlər müəllimi idi. Onun son dərəcə həssas, nurlu, işıqlı bir ürəyi vardı. O, insanlara, həyata, mənsub olduğu cəmiyyətə məhz bu işığın fonunda baxır, qiymət verirdi.

Mir Cəlal müəllimin gözəl, ülvi hisslərinin böyük bir hissəsi gənclərlə, dərs dediyi tələbələrlə bağlı olub. O, tələbələrini ürəkdən sevir, daim onların qayğısına qalırdı. Bəlkə də onun ömrünün axırına qədər ayrılmadığı müəllimlik sənətinə də məhz bu sevgi, bu məhəbbət gətirmişdi. O, gəncləri millətin gələcəyi, şərəf və ləyaqətinin simvolu hesab edirdi. Onları sağlam, ağıllı, savadlı, müstəqil düşüncə, əməl sahibi kimi görmək istəyirdi. O, çalışırdı ki, gənclərimiz sağlam, savadlı böyüməklə yanaşı, həm də bitkin, kamil insan, əsil vətəndaş kimi yetişsin, formalaşsın. Ümumiyyətlə təhsildə, təlim-tərbiyədə, ictimai fikrin bütün sahələrində insanlıq fəlsəfəsi onun devizi, şüarı, əsas amalı idi.

Bütün bunlarla yanaşı Mir Cəlal mənsub olduğu xalqın həyatını, mənəvi aləmini, psixologiyasını, adət-ənənələrini yaxşı bilən, həmişə müasirlik ruhu ilə yaşamış böyük yazıçılarımızdan biri olmuşdur. O, gözəl sənətkarlıq nümunəsi olan yüzlərlə hekayənin, «Dirilən adam», «Bir gəncin manifesti», «Açıq kitab», «Yaşıdlarım», «Təzə şəhər», «Yolumuz hayanadır» kimi qiymətli romanların müəllifidir. Onun ən kiçik hekayə və oçerklərindən tutmuş iri həcmli romanlarına qədər bütün əsərlərində xalqın idrakından, təfəkkür tərzindən, mənəvi dünyasından qidalanan şirin yumor, nikbinlik, milli kolorit, təbiilik, dərin ictimai-əxlaqi məzmun, ideya hakimdir.

O, qələmə aldığı mühitin, hadisənin ruhuna, varlığına nüfuz etməyi, qəhrəmanlarının daxili aləmini, xarakterini açmağı, onları öz məişətlərinə, dünyagörüşlərinə uyğun şəkildə təsvir etməyi, danışdırmağı bacaran, fikirlərini

həmişə yığcam, lokonik ifadə etməyə çalışan, orijinal üsluba, dəst-xəttə malik bir yazıçıdar.

Mir Cəlal bədii yaradıcılıqla yanaşı elmi fəaliyyətlə də ardıcıl şəkildə məşğul olmuşdur. Müasir ədəbiyyatşünaslığın və ədəbi tənqidimizin tarixindən, əsas inkişaf mərhələlərindən söz düşəndə onun adı xüsusi hörmət və ehtiramla çəkilir.

Mir Cəlalın elmi maraq dairəsi çox geniş və əhatəlidir. O, Azərbaycan ədəbiyyatı tarixinin, nəzəri-estetik fikrimizin müxtəlif dövrlərinə və problemlərinə həsr olunmuş tədqiqat xarakterli məqalələrin, «Füzulinin sənətkarlığı», «Azərbaycanda ədəbi məktəblər», «Cəlil Məmmədquluzadə realizmi haqqında», «Xalq şairi Səməd Vurğun», «Gülüş bədii silah kimi», «Klassiklər və müasirlər», «XX əsr Azərbaycan ədəbiyyatı», «Ədəbiyyatşünaslığın əsasları» kimi qiymətli monoqrafiya və dərsliklərin müəllifidir.

«Mənəvi borc» kitabı da məhz Mir Cəlal Paşayevin şəxsiyyəti, bədii, elmi, pedaqoji fəaliyyətinin müasir elmi-nəzəri tələblər əsasında geniş,aflı tədqiq və təhlilindən ibarətdir.

İkinci kitabım 2007-ci ildə yazdığım və həmin ildə nəşr olunmuş «M.F.Axundovun ideal və sənət dünyası» (15 ç.v.) adlı monoqrafiyadır. Mütəfəkkir-yazıçı, milli dramaturgiyamızın banisi, görkəmli ictimai xadim, ədəbiyyatımızda, bütünlükdə ictimai-elmi fikir tariximizdə yeni bir mərhələnin əsasını qoymuş Mirzə Fətəli Axundov xalqımızın yetişdirdiyi nadir simalardan biridir. «M.F.Axudovun ideal və sənət dünyası» adlı monoqrafiya da məhz bu dahi şəxsiyyətin həyatının, keçdiyi şərəfli mübarizə yolunun, bədii yaradıcılığının, ədəbi-tənqidi görüşlərinin və ictimai-fəlsəfi baxışlarının yeni aspektdə, müstəqillik dövrümüzün elmi-nəzəri tələbləri əsasında geniş tədqiq və təhlilinə həsr olunmuşdur.

M.F.Axundov ədəbi-ictimai fəaliyyətə başladığı gündən ta ömrünün sonuna qədər tez-tez «Mən xalqımın və bəşəriyyətin dostuyam» sözlərini işlədirdi. Bu sözlərdə onun bədii yaradıcılığının, ictimai məramının, elmi-fəlsəfi dünyagörüşünün humanist mahiyyəti, ictimai məzmun və mündəricəsi öz əksini tapmışdır. Bu sözlərin

arxasında böyük vətəndaş, mütəfəkkir, bütün şüurlu həyatını vətəninin və xalqının, bütünlükdə insanlığın azadlığı, xoşbəxtliyi, mənəvi təkamülü, intibahı uğrunda mübarizəyə həsr etmiş M.F.Axundovun dünya standartları səviyyəsində dayanan ədəbi-elmi, ictimai fəaliyyəti, fəlsəfi görüşləri və ölməz bəşəri idealları dayanır. O, özünün dediyi kimi, əqidəsindən, tutduğu şərəfli mübarizə yolundan heç vaxt dönməmiş, qarşılaşdığı bütün maneələrə mərdliklə, ləyaqətlə sinə gərmiş, dönməz iradəyə, bütöv xarakterə malik bir şəxsiyyət olduğunu sübut etmişdir.

M.F.Axundovun bir mübariz şəxsiyyət, yazıçı, ictimai xadim kimi ali keyfiyyətlərindən biri və ən başlıcası vətənpərvərlik idi. O, bu məsələdən danışarkən yazırdı: «Mənim xalqımın fitri istedadı ümumavropa xalqlarının fitri istedadından əskik deyil, bəlkə də qat-qat artıqdır… Mənxalqı sevən, canını bu yolda qurban verməyə hazır olan bir adamam. Mənim məqsədim islam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmi, sənəti inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətlərinin artması üçün, vətənin abadlaşdırılması üçün ədalətə rəvac verməkdir… Mənim məqsədim ancaq ondanibarətdir ki, bütün müsəlman xalqları da başqa xalqlar kimi savad və elm sahibi olub məişət işlərindən lazımınca xəbərdar olsunlar».

XIX əsr yeni realist ədəbiyyatın banisi sayılan M.F.Axundov özünün milli-bəşəri amalını, ideal və arzularını həyata keçirmək üçün bədii yaradıcılığın bütün sahələrilə məşğul olmuşdur. O, külli miqdarda dərin ictimai, elmi-fəlsəfi, ədəbi-tənqidi məqalə və əsərlərin müəllifi olmaqla yanaşı, həm də Azərbaycan ədəbiyyatı tarixində istedadlı şair, böyük dramaturq və nasir kimi tanınmış, bu sahədə son dərəcə zəngin, mənalı və ölməz ədəbi irs qoyub getmişdir. Onun ədəbi-ictimai fikir tarixində xüsusi bir mərhələ təşkil edən, sənətkarlıq cəhətdən yüksək səviyyədə dayanan bədii əsərləri həmişəlik olaraq ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur.

Milli, professional dramaturgiyamızın banisi olan, «zahirimizi də, batinimizi də eynilə göstərən M.F.Axundovun komediyalarında xalqımızın milli həyatı, yaşadığı mühit, təfəkkür tərzi, mənəvi-əxlaqi görüşləri, mütərəqqi arzu və meylləri olduqca canlı, real boyalarla öz bədii əksini tapmışdır. M.F.Axundovun dramaturgiyası həm

də onun geniş mündəricələri ümumi yaradıcılığının, bütünlükdə elmi-nəzəri fəaliyyətinin tərkib hissəsidir, ədibin qarşısında qoyduğu böyük ictimai-estetik idealları həyata keçirmək üçün daha əlverişli və təsirli vasitələrdən biridir. M.F.Axundovun komediyaları həm də onun yüksək bədii formada öz ifadəsini tapmış ictimai-fəlsəfi, əxlaqi, məramının, milli-bəşəri ideallarının inikasıdır».

Elə buna görə də M.F.Axundovun bədii əsərlərinin, həm də bütünlükdə ümumi yaradıcılığının məzmun və mahiyyətini, izlədiyi qayə və ideallarin idraki-tərbiyyəvi əhəmiyyətini daha yaxşı başa düşmək üçün onun ictimai-fəlsəfi baxışları ilə də yaxından tanış olmaq zəruridir. Bu həm də ona görə vacibdir ki, bütün dövrlərdə bədii-estetik fikrin, poetik normaların, elmi idrakın inkişafı və qazandığı nailiyyətlər həmişə tarixi ənənələrlə yanaşı, həyatın real tələblərinə və mövcud ictimai-fəlsəfi təfəkkürə əsaslanır, onun zəminində formalaşır, intişar tapır. Dahi mütəfəkkir olan M.F.Axundovun həm ümumi yaradıcılığı, həm də ictimai-fəlsəfi görüşləri öz dövründə olduğu kim, bu gün üçün aktualdır və böyük elmi-idraki əhəmiyyətə malikdir.

2008-ci ildə yazdığım və həmin ildə çap olunmuş (27 ç/v.), üçüncü kitabım «Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları» (Tədris vəsaiti) adlanır. Kitabda ədəbiyyatşünaslığın  və onun tərkib hissəsi olan ədəbiyyat nəzəriyyəsinin mövzusu, predmeti, tədqiq obyekti, əsas sahələri, ədəbiyyatın, sənətin idraki-tərbiyəvi əhəmiyyəti, ədəbiyyatda tipiklik, xəlqilik, millilik, bəşərilik, məzmun və forma, bədii əsərin dili, ədəbi növlər və janrlar, lirik növ, Azərbaycan şeirinin vəznləri, epik, drammatik növ və onların janrları, bədii ədəbiyyatda gülüş, metod, üslub, ədəbi cərəyanlar kimi problem məsələlər yeni kontekstdə, müasir dövrün nəzəri-estetik tələbləri və dəqiq bədii-elmi faktlar əsasında  araşdırılır, izah və təhlil olunur.

Ədəbiyyatşünaslıq elmi və onun əsaslarını təşkil edən ədəbiyyat nəzəriyyəsinin həm klassik ədəbiyyatın tədqiqində, həm də müasir ədəbi prosesin və ədəbi tənqidin inkişafında, formalaşmasında rolu, əhəmiyyəti son dərəcə böyükdür. Ədəbiyyatşünaslıq bir elm kimi nəzəri biliklər sisteminə daxildir. Onun tarixi ictimai-

fəlsəfi fikirin, bütünlükdə nəzəri biliklərin tarixi qədər qədim və zəngindir. Onun da başqa elm sahələri kimi, öz predmeti və tədqiq obyekti vardır. Ədəbiyyatşünaslıq elmi canlı, dinamik, daim inkişafda olan bədii yaradıcılığı, bütünlükdə ədəbiyyat tarixini, ədəbi prosesi öyrənir, təhlil edir, məhz bu sahələrə əsaslanaraq özünün elmi-nəzəri hökmlərini verir. Ədəbiyyatşünaslıq elminin tədqiq və təhlili hər bir xalqına milli ədəbi irsindən, dünya ədəbiyyatının inkişaf mərhələlərindən, ölməz sənət abidələrindən kənarda deyil, daim onlarla vəhdətdə, qarşılıqlı əlaqədə öyrənilməli, dərk və izah olunmalıdır. Çünki predmetsiz elm olmadığı kimi ədəbiyyatşünaslıq elmini də kamil ədəbi nümunələrə, incəsənət abidələrinə əsaslanmadan tam və hərtərəfli açmaq, öyrənmək mümkün deyildir.

Bununla yanaşı, ədəbiyyatşünaslıq elmi həm də indiyədək mövcud olan yanlış elmi müddəalardan, ideoloji-nəzəri təhriflərdən təmizlənməlidir. Ədəbiyyat və sənətdə ideya, estetik ideal, idrak və inikas, həyat və həqiqəti və bədii həqiqət, sənətin mənşəi, sənətdə ümumiləşdirmə və fərdiləşdirmə sənətkar şəxsiyyəti, varlığın materialist və idealist dərki, həyata obyektiv və subyektiv münasibət, ilahi ruh, ədəbi ruh, ədəbi ideya, ədəbi zəka, məzmun və forma, tarixilik və müasirlik, xəlqilik, millilik və bəşərilik, sənətdə pafos, ədəbi irs və varislik kimi anlayışlara, nəzəri-estetik problemlərə yenidən baxılmalı, bu \ünün elmi tələbləri səviyyəsində şərh və izah olunmalıdır. Xüsusilə sənətin obyektiv qanunlarına, təbii inkişafına, tarixən formalaşmış yaradıcılıq prinsiplərinə zidd olan ədəbiyyatda partiyalılıq, sinifilik, bir millətin iki mədəniyyəti kimi qeyri-elmi müddəalar kənara atılmalı, onların yanlış, saxta mahiyyəti tam və hərtərəfli açılmalıdır.

Ədəbiyyatşünaslıq elminin tədqiq və təhlilində, bütünlükdə onunla bağlı problemlərə münasibətdə son vaxtlara qədər özünü göstərən və adi ənənəyə çevrilmiş bitərəfliyə, qeyri-elmi konsepsiyaya son qoyulmalıdır. Onun yaranmasında, formalaşmasında təkcə Qərbi Avropa və rus mənbələrinin deyil həm də Şərq və Azərbaycan ədəbi fikrinin rolu, əhəmiyyəti nəzərə alınmalıdır. Bu sahədə, xüsusilə, Xətib Təbrizi, N.Gəncəvi, M.Füzuli, M.F.Axundov, F.Köçərli, C.Məmmədquluzadə

və başqa klassiklərimizin böyük xidmətləri ayrıca qeyd olunmalıdır. Bu həm elmi obyektivlik, həm də dünya ədəbiyyat nəzəriyyəsi tarixində Azərbaycan ədəbi-estetik fikrinin yerini, mövqeyini müəyyənləşdirmək nöqteyi-nəzərindən də vacib və zəruridir.

Ədəbiyyatşünaslıq elminin öyrənilməsində və tədqiqi prosesində  tarixi ədəbi əlaqələr və varislik prinsipi gözlənilməlidir.  Çünki başqa elm sahələri kimi ədəbiyyatşünaslıq elmi də özünün çozəsirlik inkişaf tarixində həmişə varislik qanunlarına əsaslanmış, ədəbi-nəzəri fikrinin hər bir dövrü özündən sonra gələn dövr üçün zəmin və keçid mərhələsi olmuşdur. Ədəbiyyat nəzəriyyəsinin antik, intibah, maarifçilik və onlardan sonra gələn mərhələləri arasında qırılmaq daxili əlaqə, üzvü vəhdət mövcuddur. Dünya ədəbi-nəzəri fikirin yaradıcıları olan Platon, Aristotel, Nizami, Füzuli, Bualo, Lessinq, Volter, Didro, Hegel, Belinski, M.F.Axundov kimi mütəffəkkirlər  təkcə tarixi şəxsiyyətlər deyil, həm də müasirlərimizdir. Bugünkü ədəbi axtarışlarımız və bədii təfəkkürümüz məhz  belə böyük dühaların ədəbi-nəzəri irsinə söykənərək yaranır, formalaşır, yeni elmi müddəalarla zənginləşir.

Yekun olaraq demək lazımdır ki,   yuxarıda irəli sürülən  problemlər, elmi-nəzəri tələblər ilk növbədə sənətdə tarixilik və müasirlik, tarixi müqayisəli metod anlayışlarına əsaslanır. Bu xüsusiyyət ədəbiyyatın və incəsənətin qayda-qanunlarını, yaradıcılıq prinsiplərini öyrənən ədəbiyyatşünaslıq elmi üçün də eyni dərəcədə xarakterikdir. «Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları» kitabında şərh olunan problemlər də məhz bu elmi müddəalar əsasında yazılmış tədqiq olunmuşdur.

Dövlətçiliyin inkişaf edib kamilləşməsi dövründə epos ikinci planı keçir. Bu zaman qəhrəmanlıq öz estetik inikasını başqa bədii formada - dramda ta-pır. Bunun nəticəsidir ki, Afina dövləti zamanı Yunanıstanda, XVI-XVII əsr-lərdə Qərbi avropada ayrı-ayrı milli dövlətlərin yaranması zamanı ingilis, is-pan, fransız dramının çiçəklənmə mərhələsi başlanmışdır.

Əlbəttə, bu o demək deyildir ki, epos, o cümlədən qəhrəmanlıq eposları tamamilə itir. Məsələ bundadır ki, söz sənəti nümayəndələri tərəfindən «ən ali» növ adlandırılan epos indi özünün klassik formasında çıxış edə bilmir.

Orta əsrlərin sonlarında Avropada cəngavərlik romanları yaranmağa baş-layır. Ancaq bu romanlar epos formasının əhəmiyyətini, onun klassikliyini heç cür əvəz edə bilmədi. Bu romanlar hətta özünün monumental nümunələrini də verə bilmədi. İntibah dövründən başlayaraq dövrümüzə qədər cəngavərlik ro-manları öz orqanik quruluşuna, geniş xəlqi və milli dəyərləri tamamilə özündə əks etdirməyən janr kimi qiymətləndirilmişdir. Bu romanlar daha çox «əyləncəli» janr kimi geniş yayılmış və «ciddi» sənətin sərhədləri xaricində qəbul edilmişdir.

Bundan sonra XV-XVII əsrlərdə «süni epos» adlandırılan böyük epik po-emaların bütöv bir pleyadası yaranır. Bu poemalarda qəhrəmanlıq tarixinin epik təsviri olsa da, bu nümunələr öz bədii əhəmiyyətinə görə xalq epos nümu-nələri ilə müqayisə oluna bilməzdi. Belə ki, həmin poemalarda epizm geniş, çoxcəhətli planda yox, məhdud çərçivədə verilirdi. Odur ki, qəhrəmanlıq epos-larınm əvəzi kimi yaranan bu epik poemalar poema kimi qəbul edilmişdir.

Xüsusilə də XVI-XVII əsrlərdən başlayaraq epos özünün ənənəvi forma-sında özünün aparıcı rolunu oynaya bilmir. O, drama və yeni yaranmaqda olan epik formalar qarşısında açıq-aydın ikinci plana keçir.

Avropada iki ümumdünya-tarixi əhəmiyyətli epoxanın həqiqi epos nümu-nəsi Dantenin «İlahi komediya»sıdır. Bu böyük epik əsərin əsasmda belə de-mək mümkünsə, xristianlığın «mifologiyası» dayanır. Bu isə qədim mifoloji mədəniyyətdən prinsipial şəkildə fərqlənir və ilk planda insanm «maddi» deyil, mənəvi qüvvə və varlığını əsas götürür.

Bu dövrdə yaranan poemalarm xarakterik xüsusiyyəti bundan ibarət idi ki, bu əsərlər canlı müasirliklə bədii aləm arasında kontakt rolu oynayırdı. Bir növ, əvvəlki dövrlərə məxsus olan «epik distansiyalara» riayət olunmadı və əsərlərin real həyata nüfuzu, onunla təması artdı. Başqa cür desək, bu dövrdə yaranan eposlar öz

mahiyyətinə görə artıq qəhrəmanlıq səciyyəsi daşımırdı. Qəhrəmanlıq mövzusu bu eposlarda əsas olsa da, aparıcı hesab olunmurdu. Bir sözlə, Dantenin «İlahi komediya»sı eyni zamanda həm həqiqi köhnə epos nümunəsi, həm də yeni epik formanın başlanğıcıdır.

Daha sonrakı dövrlərdə də eposun dağılması və yeni epik formaların ya-ranması davam edir. Lakin bu poemalarda klassik epos genişliyi, həcm bütövlüyü, ən başlıcası isə onun başlıca təyinedicisi olan qəhrəmanlıq yox idi.

Bundan sonrakı inkişaf dövrlərində əsas yeri avantür romanlar tutmağa başladı, hər şeydən əvvəl, bu romanlar da ciddi qəbul edilməyən cəngavərlik romanlarına aid idi. Avantüraçılıq və ya macəraçılıq - özünəməxsus estetik dəyər kimi Hegel tərəfindən tədqiq olunmuşdur.

Bu dövrlərdə cəngavərlik romanlarına lap yaxın olan kurtuaz (fr. courtais - xüsusi nəzakət) eposları yaranır. Bu eposların əsasında məhəbbət macəraları durur.

Bundan fərqli olaraq komik eposlar yaranır. Bu əsərlərin də mərkəzində parodiya əsas yer tutur.

Nəhayət, eposun inkişafında əsas yer tutan böyük epik janr hesab olunan utopiyalar və idilliyalar yaranır. Morun «Utopiya», Kampanellanın «Günəş şəhəri», Bekonun «Yeni Atlantida», Montemayorun «Diana», Servantesin «Qalateya» və s. idilliyaları buna misal olaraq gətirmək olar. Qeyd olunduğu kimi, qədim eposlarda xoşbəxt ölkənin utopik obrazlarının və «idillik vəziyyət-lər»in təsvirinə geniş yer verilir.

Demək olar ki, XVI-XVII əsrlərdə köhnə eposun əlamətləri tamamilə yox olur və aradan çıxır. Antik eposçuluq ənənəsi itir və bunun əvəzində başqa epik janrlar yaranmağa başlayır.

Bədii əsər necə yaranır, bədii əsərin yazılması üçün sənətkarın fəaliyyəti hansı mərhələlərdən keçir. Bu məsələ ilə bağlı problemlər nəzəriyyəçiləri və es-tetikləri həmişə düşündürmüşdür. Bir sıra idealistlər bədii yaradıcılıq prosesi-nin mürəkkəbliyindən çıxış edərək göstərirlər ki, onun sirlərini açıb göstərmək mümkün

deyildir. Onlarm fıkrincə, incəsənət öz mahiyyətinə görə sanki bir möcüzədir, onun həqiqi təbiətinin rasional dərki mümkün deyildir. İncəsənətin mahiyyətinin dərkolunmazlığının əsas tərəfdarı b. e. əvvəl yaşamış yunan alimi Platon olmuş və daha sonrakı illərdə alman romantikləri Şellinq və Novalis bu fikri inkişaf etdirmişlər. Müasir dünya ədəbiyyatşünaslığında da intuitiv fəlsə-fənin ardıcılları olan bir sıra estetiklər və nəzəriyyəçilər bu fikri müdafiə edir-lər.

Yaradıcılığın dərkolunmazlığını sübut etməyə çalışan onun müdafiəçiləri öz mövqelərini bununla əsaslandırırlar ki, bədii yaradıcılıq prosesi və ümu-miyyətlə yaradıcılıq bizim şüurumuzdan asılı olmayan bir aktdır. Platon və onun ardıcılları şair-yaradıcıda bir ilahilik əlaməti görmüşlər. Onların fikrincə, hər bir sənətkar xüsusi bir ekstoz vəziyyətində yaradır və onun hərəkətlərinə şüurla nəzarət olunmur. Estetik intuitivistlərin nümayəndələri Berqson, Kroçe, Freyd bu məsələni bioloji cəhətdən izah edirlər. Onlar intuisiyanı ağıldan təcrid edərək yaradıcılığın yeganə qüvvəsi hesab etmişlər. Freyd yaradıcılıq prosesinin əsas mənbəyini seksual instiktlərdə axtarırdı. İntuitiv estetika tərəf-darlarınm fikrincə, hər cür məqsədyönlülük yaradıcılığın mahiyyətinə ziddir. Onlar yaradıcılıq prosesinin şüurdan asılı olmasını yaradıcı düşüncənin, bəzi obrazların, şeirlərin yuxu zamanı əmələ gəlməsi ilə izah edirlər.

Həqiqətən də bununla bağlı çoxlu misal gətirmək olar. Məlumdur ki, Puşkinin fantaziyası onu dəfələrlə yuxudan qalxmağa məcbur etmişdi. Öz şeir-lərini yuxuda görən Puşkin çarpayıdan hövnak qalxaraq yuxuda diktə olunan şeirlərini qələmə almışdır. Yaradıcılıq aktlarının yuxu zamanı intensivləşməsi haqqında Mayakovski də bəhs etmişdir.

Bütün bunlarla bərabər yuxu zamanı yaradıcılıq fəaliyyətinin aktivliyi bu prosesin şüurdan asılı olmadan baş verməsini əsaslandırmaq üçün arqument ola bilməz. Məlumdur ki, insan beyni yuxu zamanı fəaliyyətini dayandırmır. O, xarici qıcıqlara, əvvəllər aldığı təəssüratlara mütləq reaksiya verir. Lakin bunların hamısı az da olsa, şüurun nəzarəti altında baş verir və bu təsəvvürlər ən möcüzəvi obrazlı

kombinasiyaların yaranmasına imkan verir. Yaradıcılıq intuitiv xarakter daşıyır. İntuisiya yaradıcılıq prosesinin ən fəal faktı kimi özünü insanın təkcə yuxulu olduğu zaman yox, ayıq vaxtında da göstərir. İn-tuisiyanı, adətən, tədqiqatçının tez, qəfıldən və gözlənilmədən həqiqəti tapması kimi adlandırırlar. İntuisiya yaradıcılığın yüksəliş ilhama gəlmə vaxtında adə-tən, fəallaşır. Bu isə o zaman baş verir ki, sənətkarm yaradıcılıq imkanları hə-rəkətə gətirilir və vahid məqsəd naminə istiqamətlənir. İntuisiya fıkirlə ayrıl-mazdır və onu şüura qarşı qoymaq olmaz. İrrasionalizm və intuitivizm nəzə-riyyəçiləri isə bir qayda olaraq bunun əksini söyləyirlər. İntuitiv hiss etmə ciddi surətdə ayrı-ayrı ixtisas sahələrinə uyğun olaraq baş verə bilir. Şair öz kəşfini yalnız poeziya sahəsində, fızik-fızika, riyaziyyatçı-riyaziyyatda edə bilər.

İntuitivliyin çəkisi rolu yaradıcılığın son mərhələsində əsərin yazılmağa başlandığı, obrazlar sisteminin yaradılması zamanı xüsusilə böyük olur. Yazı-çmm emosional, intellektual gərginliyi özünün son həddinə çatır, intuitiv «cü-cərtilər» onun beyninə təsir edir və müqəddəs məqsəd üçün onun yolunu işıq-landırır. Bununla belə, intuisiyanın rolunu yaradıcılıq prosesində həddən artıq şişirtmək, onu absalyutlaşdırmaq, onu sənətkarın yaradıcı şüuruna qarşı qoy-maq düzgün deyildir. Yaradıcılıq fəaliyyətində dünyagörüşün rolu daha çox əhəmiyyət kəsb edir və əsas təşkiledici qüvvəyə çevrilir. O, yazıçının fəaliyyəti-nə müəyyən istiqamət verən, gerçəkliyin daxili əlaqə və münasibətlərinin, onun dərk olunmasının başlıca silahıdır.

Fikrimizcə, yaradıcılıq prosesinin şüürdan asılı olmadığını müdafıə edən bütün estetiklər əslində incəsənəti real ictimai həyatdan ayırırlar. Onlar yara-dıcılığı ya ilahi qüvvənin gücü, ya instinkt ifadə olunma kimi izah edirlər ki, guya bu insan şüurunun təbiətindən asılı deyildir. Məsələnin belə qoyuluşu isə bədii yaradıcılığın dini-mistik və ya bioloji mahiyyətinin başa düşülməsinə im-kan vermir.

Bədii ədəbiyyatın spesifıkliyi haqqında nəzəri-estetik fıkirlər ədəbiyyatın incəsənət forması kimi yarandığı və təşəkkül tapdığı dövrlərdən başlayır. Bədii ədəbiyyatın mahiyyəti, funksiyası, spesifık xüsusiyyətləri haqqmda ilk nəzəri-estetik mülahizələri antik yunan fılosofları söyləmişlər. Antik dövr fılosoflarının estetik

araşdırmalarında göstərliir ki, ədəbiyyatın əsas vəzifəsi, onun incəsənət forması kimi başlıca funksiyası həyatı dərk etdirməkdir. Ümumiyyətlə dünya ədəbiyyat nəzəriyyəsi elminin yara-dıcısı qədim yunan fılosofu Aristotel (b.e.ə. 384-322) hesab olunur. Aristotel daha çox bədii ədəbiyyatın ictimai funksiyası, sosial məzmunu məsələsindən bəhs etmişdir. Buna uyğun olaraq o, bədii yaradıcılığın başlıca elementi olan təqlidin ictimai əhəmiyyətini göstərmişdir. Onun fıkrincə, təqlid sosial faktor olaraq yalnız insanlara məxsusdur. Aristotelə görə, bədii yaradıcılığın əsas şərti bədii təqlidiə bağlıdır. Odur ki, Aristotel bədii yaradıcıhq prosesində təqlidin üç fomasını göstərmişdir. Nə ilə təqlid etmək, nəyi təqlid etmək və necə təqlid etmək.

Aristotel təqlidin növlərini müəyyənləşdirərkən bədii ədəbiyyatın nə ilə təqlid olunması məsələsi üzərində xüsu-silə dayanmışdır. Bunu nəzərə alaraq Aristotel dil faktoruna xüsusi diqqət vermiş, bədii ədəbiyyatın dilini "bəzənmiş dil" adlandırmışdır. Aristotel nəyin təqlid olunması məsələsindən danışarkən göstərmişdir ki, ədəbiyyatm əsas vəzifəsi insanı təqlid etmək, göstərməkdir. Təqlidin üçüncü növündən - necə təqlid edilməsi məsələsindən danışan qədim yunan alimi dünya ədəbiyyat nəzəriyyəsi tarixində ilk dəfə olaraq özünün ədəbi növ və canr nəzəriyyəsini yaratmışdır. Aristoteldən fərqli olaraq qədim dünyanın başqa bir fılosofu Platon (427-347) fəlsəfı-estetik görüşlərində ədəbiyyatın ictimai aktuallıq prinsipini arxa plana çəkmişdir. O, Aristoteldən fərqli olaraq, bədii ədəbiyyatın, ümumiyyətlə, incəsənətin ictimai məzmunundan, həyatiliyindən, sənətkar təxəyyülünün məhsulu olmasından daha çox vergiyə üstünlük vermişdir. Başqa yunan alimi Sokrat (469-399) incəsənətin mahiyyəti haqqında danışarkən göstərirdi ki, incəsənətin əsas vəzifəsi gözəlliyi göstərmək, əks etdirməkdir.

Ədəbiyyat nəzəriyyəsinin sonrakı mərhələlərində də bədii ədəbiyyatın mahiyyəti, funksiyası haqqında maraqlı fıkirlər söylənilmişdir. Ümumiyyətlə, bütün ədəbiyyat nəzəriyyəçiləri belə bir yekdil fıkirdədirlər ki, hər hansı bir sənətkar öz bədii həqiqətini, gözəlliyi əks etdirmək üçün mütləq həyat həqiqətinə əsaslanmalıdır. Sənətkarı o zaman təhlükə gözləyir ki, o həyat həqiqətindən uzaqlaşmış olur.

Ədəbiyyat nəzəriyyəsinin antik dövr mərhələsindən sonra uzun müddət ədəbiyyat nəzəriyyəsinə aid tutarlı, fundamental nəzəri əsərlər yazılmışdır. Lakin b.e.-nın 16-cı əsrindən başlayaraq, nəzəri-estetik fikir tarixində yeni bir inkişaf mərhələsi başlayır. Fransız nəzəriyyəçisi Bualo (1636-1711) 1674-cü ildə ədəbiyyatın nəzəri problemlərindən bəhs edən "Poeziya sənəti" əsərini yazdı. Bu əsəri ilə o, ədəbiyyat nəzəriyyəsi tarixində yeni bir ədəbi cərəyanın -klassisizm cərəyanının əsasını qoydu.

Sonrakı dövrlərdə ədəbiyyat nəzəriyyəsinin inkişafin-da Lessinq, Didro, Hegel, Çernışevski, Belinski və başqa nəzəriyyəçilərin böyük rolu olmuşdur.

Qeyd etməliyik ki, Azərbaycan nəzəri-estetik fikrinin də özünəməxsus inkişaf yolları, inkişaf istiqamətləri olmuşdur. Azərbaycan ədəbiyyatının özü kimi, milli estetik fikir tariximizin də tarixi qədim və zəngindir. Düzdür, qə-dim və orta əsrlərdə Azərbaycan nəzəri-estetik fikrinə dair ayrıca kitab, tədqiqat əsəri yazılmamışdır. Lakin araşdırlmalar göstərir ki, orta əsrlərin müxtəlif məxəzlərində, risalələrində ədəbi-nəzəri fikrimizin inkişafına aid zəngin material vardır. Tədqiqatçılar Azərbaycan nəzəri-estetik fikrinin inkişaf tarixindən bəhs edərkən onun müxtəlif istiqamətlərindən bəhs edirlər. Belə ki, Azərbaycan nəzəri-estctik fikrinə aid məlumatları X.Təbrizi kimi professional dilçi-tənqidçilərin əsərlərindən, təzkirələrdən, cünglərdən, habelə ayrı-ayrı böyük sənətkarların bədii əsərlərində söylədikləri nəzəri fikirlərdən alırıq.

Köhnə məişəi, fırıldaqçı din nümayəndələrini, ictimai bərabərsizliyi tənqid edən əsərlərində Ə.Qəmküsar Sabir ədəbi məktəbinin davamçısı olmuş, C.Məmmədquluzadə üslubuna istinad etmişdir. Biz ədibin felyetonlarının sənətkarlıq xüsusiyyətlərinə müraciət etdikdə görürük ki, ədib bir satirik kimi formalaşarkən klassik ədəbi irsə yaradıcılıqla yanaşmış, lakin onu təkrar etməmiş, əksinə klassiklərin irsini özünəməxsus orijinallıqla inkişaf etdirmişdir. Əsərlərinin məzmun və ideyasından göründüyü kimi, bəşəriyyətin azadlığı onun əsil idealı idi. Şairin felyetonlarındakı, satirik şeirlərindəki məziyyət, qayə də bu ideala xidmət edirdi.

Bununla yanaşı, onun azad görmək istədiyi insan kölə vəziyyətində idi. Hər yerdə minlərlə avamın, maarifsizin fəryadı qəlb yandırırdı.

Felyetonlar təkcə mövzu, məzmun və ideyasına görə deyil, həm də bədii dil, üslub xüsusiyyətlərinə görə də diqqəti cəlb edir. Məhz ona görə də, elmi işdə biz felyetonlarda işlənən məcaz və onun növlərindən ədibin gülüşünün xarakterindən, tiplərin dilindən, bədii priyomlardan danışılır. Məlumdur ki, təsvir vasitələrindən ustalıqla istifadə olunanda oxucuya təlqin edilən fikir daha çox təsirli və yaddaqalan olur. Bu mənada bənzətmələr Ə.Qəmküsar felyetonları üçün çox səciyyəvidir.

O, felyetonun məzmununa uyğun dil və üslub xüsusiyyətlərinə müvafiq bənzətmələr seçir, fikir və ideya istiqamətincə \ülüş yaradır, mənfilikləri səciyyələndirir.

Ə.Qəmküsar məcaz və onun növlərindən əsas mənanın açılmasında üstalıqla istifadə edirdi. Onun «Ah, keçən günlər» felyetonunda da iki hadisə, iki vəziyyət qarşılaşdırılaraq maraqlı bir məcaz yaradılır. «Babı» felyetonunda da təri və çirki ilə avam milləti müalicə edən Axund molla Hacı Babanın yaramaz, iyrənc hərəkətləri kinayə və tənqid olunur.

Çox zaman Ə.Qəmküsarın «tərif» hesabına kinayəsi, istehzası böyük bir mənanın açılmasına xidmət edir. Məsələn, «Ədalət və maliyyat» felyetonunda «Vallah, əstəğfürullah eləyirəm, onlara qanmayan deyənin ağzında dili qurusun».

Ə.Qəmküsarın satiralarında olduğu kimi, felyetonlarında da istehza, kinayə və məsxərə tounduğu ideyanın zəruriliyini bildirir.

Xəlqilik Ə.Qəmküsar felyetonlarının həm ideya-məzmununda, həm də bədii təsvir vasitələrində özünü göstərir. Onun əsərləri xalq məsəlləri, idiomatik ifadələrlə zəngindir. Məsələn, «Qurddan çoban olmaz», «İlanın ağına da lənət, qarasına da» məsəllərinə şair yaradıcılıqla yanaşmışdır.

Ə.Qəmküsar dövr və mühitin qüsurunu qamçılamaq, ifşa etmək naminə təkrir və təzaddan, istiarə və mübaliğələrdən də istifadə etmişdir.

Bütün deyilənlər göstərir ki, onun satirası da, yumoru da xalq yaradıcılığından gəlir. Həmçinin, bunlar Ə.Qəmküsar felyetonlarının canlı, duzlu və oxunaqlı olmasına səbəb olur.

«Məşədi Sijimqulu», «Kefsiz» imzaları ilə məşhur olan Ə.Nəzmi görkəmli realist kimi tanınmasında felyetonlarının da müəyyən rolu olmuşdur.

Əli Nəzminin poeziyasında olduğu kimi, mənsur əsərlərində də mövzu rəngarəng, həyat materialı zəngin, müşahidə dərindir. Orada azadlığı, köhnə adət ənənələrin tənqidi, zəmanəyə, çar üsul- idarəsinə mənfi münasibət, ruhanilik, dini təəssübkeşlik əleyhinə çıxışlar, ərəb əlifbasının çətinliyini nəzərə çapdırmaq səyi, yeni təlim qaydaları və mədəniyyətin təbliği, ağır kənd məişətinin realist planda əks etdtrtlməsi və başqa mövzular onun felyetonlarında əsas yer tutur. Elmi işdə də bu problemlərə həsr olunmuş felyetonlar məzmun, ideya, sənətkarlıq baxımından təhlil olunur.

Əli Nəzmi, eyni zamanda, mollaxanalardakı falaqqa cəzasını, sxolostik tədris üsulunu da lağa qoyur. Ümumiyyətlə, onun mənsur əsərləri ideya və sənətkarlıq cəhətdən C.Məmmədquluzadənin felyetonlarına yaxınlaşır. Əli Nəzminin 1906-20-ci illər arasında yazdığı nəsr əsərləri içərisində «Moizə», «Mərsiyəxanalar», «Söhbət», «Daş», «Tərbiyə, yaxud zavallı Məmiş», «Məni sayanı qurd yesin», «Şərab içmək», «Kəndlilərin məişətindən», «Maşallah», «Ay Molla Nəsrəddin əmi», «Hörmətli Molla Nəsrəddin əmi», «Üzüm var», «Arvad məsələsi», «Daha düzəldi», «Vəsvəsə», «Ata və oğul», «Ölü tutmaq» kimi felyetonlar diqqəti daha artıq cəlb edir.

Əli Nəzminin felyetonları toxunduğu məsələ və tənqid etdiyi obyekt cəhətdən də müxtəlifdir. Onun mənsur əsərləri falçılıq və quşbazlıq kimi xırda hadisələrdən tutmuş, ictimai-inqilabi hadisələrə qədər geniş mövzu dairəsini əhatə edir. Yazıçı

həcmcə kiçik olan felyetonlarının hər birində, əsasən, bir məsələdən bəhs edir, əlavə epizod və haşiyələrlə hadisəni genişləndirir, həcmi böyütmək, fikri dolaşdırmaq istəmir. Belə konkretlik onun felyetonlarını sadə və maraqlı edir, onların yadda qalmasını xeyli asanlaşdırır. O, felyetonlarında əsas hadisəni çox zaman tiplərin qarşılıqlı münasibətində, onların öz dili ilə verir. Təhkiyə, mükalimə, sual-cavab, deyişmə, müəyyən şəriət ehkamları (şeytana inanmaq, ölü tutmaq və s.) və başqa vasitələrdən bacarıqla istifadə edir. Felyetonların quruluşca müxtəlif və rəngarəng olması onların xüsusi zövq və maraqla oxunmasına, inandırıcı və təsirli çıxmasına kömək edir.

Əli Nəzmi şeirlərində olduğu kimi, nəsr əsərlərində də xalq ədəbiyyatından, xalq danışıq tərzindən, atalar sözü və məsəllərdən yeri gəldikcə istifadə edir. Onun satirası da, yumoru da xalqdan, xalq yaradıcılığından gəlir. Bütün bunlar Əli Nəzmi felyetonlarının canlı, duzlu və oxunaqlı olmasına səbəb olur. Yazıçının «Corab», «Daş» kimi satirik ruh və bədii ümumiləşdirmə cəhətdən zəif yazıları da var. Əli Nəzminin felyetonları forma və məzmununa, ideya və bədii təsir qüvvəsinə, kəskin satira, mənaldı gülüşlə zəngin olmasına görə nəzəri cəlb etməkdədir. Şairin realizminin mahiyyətini, ümumi yaradıcılıq təmayülünü daha aydın təsəvvür etmək üçün bu felyetonlar xüsusi əhəmiyyətə malikdir.

Bayraməli Abbaszadə «Hammal» imzası ilə yazdığı satirik şeirləri ilə Azərbaycan ədəbiyyatı tarixində məşhurdur. Məlumdur ki, B.Abbaszadənin dövründə İrandakı ağır irtica ölkəni xarabazara çevirmiş, küçələri, binaları, şəhərləri bərbad vəziyyətə salmışdır. B.Abbaszadə də satiraları ilə belələrini ifşa edir. Yazılan elmi işdə də «Məşrutə», «Əmi», «Hər yana baxıram» və s. Şeirlərində onun realist sənətkar kimi çıxış edərək istibdada lənətlər yağdırdığı aydınlaşdırılır. Məlum olur ki, o bu şeirlədə xalqın dilənçi vəziyyətindən, insanların heyvanlar kimi dağılıb çöllərə düşməsindən, qız və qadınların heysiyyətinin tapdanmasından danışır. O, insanların

didərginliyi vətənin bərbadlığı, sahibsizliyi fonunda nəzərə çatdırmaq üçün yuxarıda qeyd olunan «Əmi» şeirində Əmi sözünü rədif seçmiş, xüsusi işarələrlə, acı, kədərli sözlərlə diqqəti mətləbə cəlb etmişdir.

Şairin «Yanğılı vulkan da var» şeirinin hər misrası bayatı formasındadır, lakin bayatıdan fərqli olaraq, şeirin hər bəndi 6 misradan ibarətdir. Şeir oynaq vəznlidir. Burada məsciddə baş verən qanlı hadisələrdən danışılır. Şair yazır ki, inqilablar dövründə, şərqin oyanan vaxtında bədbəxt müsəlman məscidə gedib min il əvvəl ölmüşləri xatırlayıb qılınclı özlərini yaralayır, qan tökürlər. Farslar, fransızlar, ispanlar vətənin, millətin oyanışı uğrunda qan töküb, mübarizə meydanına atılırlar. O meydanda sizə də yer var. İstədiyiniz qədər can qurban verə bilərsiniz. Siz öz başınızı yox, millətin azadlığı uğrunda düşmənin başını yara bilərsiz.

Şair başqa bir «Hər yana baxıram» satirasında «Başına noxta vurub ümməti siz noxtaladız» misrası ilə də ürəyinin ağrısını sakitləşdirmək üçün şişirtmə və kəskinləşdirmədən, maraqlı epitetlərdən bir sözlə, bədii, obrazlı dilin kəsərindən istifadə edir, istismarçıları qəzəblə ifşa edir:

«Dağılıb çöldə gəzir xırdaca ətbalə kimi», «Ürəyim parçalanıb dağda bitən lalə kimi» və s. Göründüyü kimi o, obrazlı dillə bədii ümumiləşdirmələr aparıb tənqidin, ifşasının təsirini daha da qüvvətləndirir.

2008-ci ilin plan işinə əsasən XIII əsrədək Azərbaycan klassik ədəbiyyatında ideya və mövzu problemlərinə dair elmi məqalə və monoqrafiyalar, dərsliklər yazılmalı idi. Həmin işə dair kifayət qədər elmi tədqiqat işləri aparılmış və nəticədə mövzu ilə başlı iyirmiyədək elmi məqalə və *häasssp* elmi monoqrafiya çap etdirilmişdir.

Mahiyyət etibarilə həmin mövzu bu kimi elmi problemlərin həllini ortaya çıxarmağa kömək etməli idi: həmin dövrdə bəzi şairlərimiz vətəndən uzaqda anadan olmuş, uzaq ellərdə yaşamış və qərib dillərdə yazmışlar. Onların Azərbaycan klassik ədəbiyyatma aid edilməsi nə dərəcədə məqsədəuyğun olardı. Tədqiqatlar göstərdi ki,

həmin şairlərin əsərləri ideya və mövzu baxımdan birbaşa Azərbaycan ədəbiyyatı ilə bağlılığı var. Çünki həmin müəlliflərin istifadə etdikləri üslub, müraciət etdikləri mövzular, irəli sürdükləri ideyalar Azərbaycan xalqının istək və arzularından doğurdu və həmin əsərlər Azərbaycan xalqının milli varlığının başqa dillərdə ifadəsi idi.

Mövzuya dair çap olunan çoxsaylı elmi məqalələr, "Klassik Azərbaycan ədəbiyyatı ümumşərq kontekstində" elmi monoqrafiyası və eyni zamanda dərs vəsaiti qarşıya qoyulan məqsədin tam həyata keçməsi deməkdir. Məqalələrdə və elmi monoqrafıya və dərs vəsaitlərində qoyulan məsələlər klassik Azərbaycan ədəbiyyatındakı ideya və mövzulara tam aydınlıq gətirir. XIII əsrədək yaşamış klassiklərimizin, "Kitabi-Dədə Qorqud" kimi eposun, "Avesta". "Astiaq" kimi tarixi abidələrin geniş təhlili həmin nəşrlərdə öz əksini tapmışdır.

Tədqiqat içinin materialları artıq mühazirə və seminarlarda geniş istifadə olunur.

2007-ci ilin elmi-plan işində əsas mövzu klassik ədəbiyyatda vəhdəti-vücud fəlsəfı düşüncənin şərhi idi. Azərbaycan təsəwüf ədəbiyyatının tədrisində təsəwüflə bağlı məqamların izahı bir sıra problemlər yaradır. Həmin problemləri aradan qaldırmaq üçün vəhdəti-vücud fəlsəfı düşüncəsinin dərindən elmi təhlilini vermək aktual məsələ kimi elmi araşdırmalarda vardı.

Həmin ildə xarici ölkələrə olan səfərlər zamanı kifayət qədər elmi ədəbiyyat toplanıldı və mövzunun işlənilməsinə başlanıldı. Axtanşlar. Öərin elmi təhlillər, müqayisə və analizlər, müvaflq mənbələrin məlumatları, dünyanın qabaqcıl fllosoflarının, şərqşünaslannın fıkirləri öyrənildən sonra sanballı bir elmi monoqrafiyanın və dərs vəsaitini yazılmasına imkan yarandı. Beləliklə, aparılan tədqiqatlar öz nəticəsini verdi və klassik Şərq ədəbiyyatında vəhdəti - vücud fəlsəfı düşüncəsinin qaynaqları, onun elmi təhlili çap olunmuş bir neçə elmi məqalələrdə və "Klassik ədəbiyyatda vəhdəti-vücud " adlı elmi monoqrafıyada - dərs vəsaitində öz əksini tapdı.

Tədqiqatda gəlinən nəticə budur ki, klassik Azərbaycan ədəbiyyatında dərindən kök salmış vəhdəti-vücud fəlsəfı düşüncəsi öz başlanğıcım qədim hind-çin fəlsəfəsindən götürür və sonra tədricən Şərq-islam ideologiyasına nüfuz edərək ədəbiyyatda geniş yayılır.

Azərbaycan ədəbiyyatşünaslığında bu problemin ilkin təhlilini Nəsrəddin Tusi özünün "Əxalqi - nasiri" kitabında və M.F. Axundov "Kəmalüddövlə məktubları" elmi traktatında vermişdir. Bu tədqiqatlar Azərbaycan elmində ilkin mənbə kimi götürülərək tədqiqatımızda vəhdəti-vücud fəlsəfı konsepsiyasının mahiyyəti konseptual şəkildə öz əksini tapmışdır.

2008-ci ilin elmi-plan işində qarşTya qoyulan əsas məqsəd fars və ərəb dillərində yazan şairlərin dərindən araşdırılması, onların dilimizə hələ də tərcümə edilməyən, əlyazmalarının müasir əlifbaya transletrasiya olunması idi.

Bu məqsədlə bir sıra işlər həyata keçirilmiş: mövzu ilə bağlı "Klassik Azərbaycan poeziyasında ideya və mövzu problemləri (XIII əsrədək)" mövzusunda doktorluq dissertasiyası müdafiə edilmiş, XII əsr anadilli ədəbiyyatımızın görkəmli nümayəndəsi Suli Fəqihin 4800 beytlik "Yusif və Züleyxa" poemasının İstanbul nüsxəsi əsasında transletrasiya olunaraq geniş elmi izahlarla nəşr olunmuş, XVIII əsrdə yaşamış və əsərlərini yalnız fars dilində yazan Hatif İsfahani Ordubadinin həyat və yaradıcılığından elmi monoqrafıya yazılmış, şeirləri bədii tərcümə edilərək nəşr edilmişdir.

Tədqiqatın materialları məqalə şəklində dövrü nəşrlərdə öz əksini tapmışdır. Çap edilən kitablar isə artıq bir sıra fənlərin tədrisində əyani vəsait olmuşdur. Tədqiqatın əsas istiqamət və nəşr olunan materiallarda-monoqrafıyalarda qoyulan əsas problem orta əsr şairlərimizin dərindən araşdırılmasıdır. Qarşıya qoyulan əsas məqsədə nail olunmuşdur. Sili Fəqihin və Hatifın ədəbi irsi hərtərəfli araşdırılmış, ideya və mövzulara dair yazılmış doktorluq dissertasiyasında farsdilli, ərəbdilli Azərbaycan poeziyasının nümayəndələrinin ideyaları mövzuları, sənətkarhqları fundamental şəkildə elmi təhlillərdən keçirilmişdir.

Tədqiqata cəlb edilən müəlliflərin əsərləri bir-bir təhlil olunaraq onların sənətkarlığı, Şərq ədəbiyyatında tutduğu yüksək məqam elmi dəlillərlə əsaslandırılmışdır.

Mirzə Ələsgər Növrəs (1836-1912) XIX əsrin II yarısı, XX əsrin ilk illərində poeziyada keçid prosesini yaşamış maraqlı şairlərdən böiridir. O öz yaradıcılığında klassik Şərq poeziyası, divan ədəbiyyatı ənənələrini davam etdirir, həm də maarifçi-publisist, epik-didaktik istiqamətdə əsərlər yazır. «Pəndi-ətfal», eləcə də bir sıra başqa əsərldəri, «Şərqi-Rus» qəzetinə, «Molla Nəsrəddin» jurnalına münasibəti və zamanı duyması müasirlərinə meylini, keçidi ifadə edir.

Bir yaradıcı ziyalı-şair olaraq M.Ə.Növrəs yaradıcılığının ideya-məzmun və bədii forma0-vəzn mənzərəsi, bu bədii irsin ədəbi prosesin inkişaf meylləri baxımından səciyyəsi və yeri elmi maraq doğurur. Elmi işdə şairin anadilli poeziyasında vəzn üzrə əhatəli aradırma aparılır; janr-forma və vəzn münasibətləri təhlil olunur, sistemləşdirilir, tam, bütöv, müqayisəli şəkildə səciyyələndirilir. Əruz vəznindən istifadənin xarakteri və tətbiqin xüsusiyyətləri ilk dəfə tədqiq olunur, anadilli poeziyanın vəzn mənzərəsi ilə müqayisəli təhlilə diqqət yetirilir.

Bütövlükdə 116 bədii əsər-nümunə vəzn üzrə tam təhlil edilir. Araşdırılan 116 əsərdən yalnız 3-ü (2, 59%) heca vəznindədir. 2 qoşma, 1 gəraylı şairin anadilli poeziyasında hecanı aktiv mövqedə olmadığını aşkar göstərir.

Araşdırılan 116 əsərdən 113-ü (97, 41%) əruz vəznində yazılmışdır. Müəllifin yaradıcılıq simasını əruz təyin edir, bu vəzn müəyyənedici mövqe qazanır.

Əruz vəznində yazılmış 113 əsər 11 janr-forma üzrə qruplaşır: 60 qəzəl, 6 qəsidə, 2 qəzəl-qitə, 1 qitə, 1 növhə – dördlük, 6 müxəmməs, 4 təxmis, 3 təcribənd, 1 müstəzad, 28 məsnəvi, 1 təkbeyt. Bu nümunələrdə Azərbaycan əruzunda işlənən 12 bəhrdən 8-i istifadə edilir; işlənmə intensivliyi belədir: həzəc bəhri 37 əsər (32, 74%); Rəməl bəhri – 27 əsər (23, 89); xəfif bəhri – 24 əsər (21, 24%); Müzare bəhri – 12

əsər (10, 62%); mütəqarib bəhri – 6 əsər (5, 31%); müctəs bəhri – 4 əsər (3, 54%); münsərih bəhri – 2 əsər (1, 77%); səri bəhri – 1 əsər (0, 88%).

Anadilli şerimizdə işlənən 12 bəhrdən 4 bəhrdən istifadə olunur: mütədarik, rəcəz, kamil, müqtəzəb.

Vəzn mənzərəsi ideya-məzmun aləmini aydınlaşdırmağa, dürüstləşdirməyə yardım edir.

Mirzə İsmayıl Molla Səlim oğlu Axundov (1804-1900) Qasir təxəllüsü ilə yazıb-yaratmışdır. M.İ.Qasir həqiqi vətəndaş – əməlpərvər ziyalılardan biridir, müəllim – şairdir. O, ədəbi inkişafın müəyyən mərhələsini təmsil edə biləcək sənətkardır. M.İ.Qasir, böyük sənətkar S.Ə.Şirvani kimi, klassik irsin ənənəsində ayrılmadan, Şərq zəmini və kökündən qopmadan, milli – mənəvi və ədəbi-bədii yaddaş vərəsəliyini yaşadaraq, maarifçiliyin bu kök üzərində inkişafına xidmət etmiş, istəyinə nail ola bilmişdi. O öz dünənindən bügünə gəlmiş, sabahını düşünmüşdü… M.İ.Qasir də, Seyid Əzim kimi, bugunku, müasirini diqqət mərkəzinə çəkir; öz yaxşı və pisini ayırd edərək, nəyi yaşadacağını, yaşatmalı olduğunu düşünür…Şairin anadilli şeirinin vəzni ilk dəfə ayrıca və ümumi mənzərə ilə müqayisəli şəkildə araşdırılır. Janr-forma üzrə müəyyənləşdirmə aparılır, vəzndən istifadə səciyyəsi əhatəli təhlil olunur.

Şairin anadilli şeirinin vəzni ilk dəfə ayrıca və ümumi mənzərə ilə müqayisəli şəkildə araşdırılır. Janr-forma üzrə müəyyənləşdirmə aparılır, vəzndən istifadə səciyyəsi əhatəli təhlil olunur.

Şairin bütövlükdə 152 anadilli şeiri vəzncə geniş araşdırılır. Bunlardan 4 qoşma (2, 63%) heca vəznində yazılmışdır. Əsas mövqeyi əruz vəzni tutur. Araşdırılan 152 əsərdən 148 nümunə (97, 37%) əruz vəznində yazılmışdır. Bunlardan 69 qəzəl, 35 qəsidə, 13 qəzəl-qitə, 4 qitə-qəzəl, 6 mürəbbe, 1 mürəbbe-müxəmməs, 9

müxəmməs, 1 müsəddəs-müstəzad, 1 müsəbbə, 9 məsnəvi olmaqla 10 janr-formada (148 əsər) əruzun 8 bəhrindədir.

Azərbaycan əruzunda işlədilən 12 bəhrdən 4 bəhrdə – mütədarik, münsərih, kamil, müqtəzəb bəhrlərindən olan nümunəyə rast gəlinmədi, bu dörd bəhr istifadə olunmamışdır.

Şairin anadilli şeirlərində işlədilən 8 bəhr üzrə intensivlik belədir: həzəc bəhri – 42 əsər (28, 38%); rəməl bəhri – 72 əsər (48, 65); rəcəz bəhri – 4 əsər (2, 70%); müzare bəhri – 10 əsər (6, 76%); müctəs bəhri – 8 əsər (5, 41%); mütəqarib bəhri – 1 əsər (0, 68%); xəfif bəhri – 5 əsər (3, 38%); səri bəhri – 6 əsər (4, 05%).

Araşdırmada bəhr üzrə növlərdən, variantlardan istifadənin təbiəti də səciyyələndirilir, tətbiqin sənət xüsusiyyətləri filoloji təhlil predmeti olur. Ayrıca səri bəhrində növ-variant dəyişikliyi üzərində dayanılır.

Ziyalı, müəllim, şair Hacıağa Fəqir Ordubadi (1836-1886) XX əsrdə maarifçiliyin əməli-tətbiqi mərhələsində yazıb-yaratmışdır. Anadilli irsinin janr-forma və vəzn üzrə əhatəli, geniş təhlili ilk dəfə olaraq aparılır. Bu tipli tədqiqat nəzəri-əməli əhəmiyyət kəsb edir.

«Şair əruz vəzninin ən oynaq və ahəngdar bəhrlərindən yazmışdır» tipli təqdimlərdən əl çəkmək zəruridir: elmi əsaslı və informasiya tutumu bəlli olmayan bu cür izahlar ciddi araşdırma ehtiyacı aşkar göstərir. Şairin həyatı və taleyi, oğlu M.S.Ordubadinin xatirələri ilə tanışlıqdan sonra istər-istəməz düşünməli olursan: nəcib, bəşəri kədər, insani qəm və ehtiyac şairin poeziyasında vəzn, bəhr, ahəng cəhətdən nə cür təcəssüm tapır?;

Görəsən ən oynaq ahəngdə bu ifadə necə alınar?;

İdeya-məzmun və forma-vəzn əlaqələrinin konkret, informativ, analitik araşdırması təhlil nəticəsi olan əsaslı fikrə zəmin yarada bilər.

Vəzn baxımından anadilli əsərlər ikiqrupa ayrılır: məsnəvi olan 1 əsər (0, 63%) heca vəzninidə yazılmışdır; 6 janr-formada (qəzəl, qəsidə, müxəmməs, tərcibənd, rübai, qitə-qəzəl) 158 əsər (99, 37%) əruz vəznində yazılmışdır.

Heca vəznində yazılmış məsnəvidə on bir hecalı ölçü istifadə olunmuşdur. Əsər 6+5 bölgülüdür, 17 beytlik mətndə bütün misralarda bölgü sabitdir, müxtəlif bicimlərdən istifadə edilmir, normativ qaydalar tam gözlənilir; ədəbi yaradıcılıq təcrübəsi baxımından, normativ-ənənəvi qaydalara baxmayaraq, bu hal geniş yayılmışdır, əslində, XVIII-XIX əsr şeirində bir əsər daxilində bölgü dəyişkənliyi daha səciyyəvi sayıla bilər.

H.F.Ordubadi anadilli şeirində 7 bəhrdə: mütədarik, rəcəz, mütəqarib, xəfif, səri, kamil, müqtəzəb bəhrlərindən olan nümunələrə rast gəlinmədi. 158 əsər 5 bəhrdədir. Bəhrlərdən istifadə intensivliyinə görə sıralama ümumi, ənənəvi qəbul edilmiş sıradan xeyli fərqlidir: rəməl bəhri – 61 əsər (38, 61%), müctəs bəhri – 37 əsər (23, 42%); həzəc bəhri – 35 əsər (22, 15%); müzare bəhri – 24 əsər (15, 19%); münsərih bəhri – 1 əsər (0, 63%).

5 bəhr, onların 12 növü istifadə olunmuşdur.

Müqayisəli yanaşma poeziyanın səciyyəsini əsaslı şəkildə müəyyənləşdirməyə yol açır.

Azərbaycan ədəbiyyatında digər Şərq ölkələrində olduğu kimi, nəsr qolu poeziyaya nisbətən ləng inkişaf etmişdir. Dahi sənətkarlar qələmlərini nəzm sahəsində, poeziyada sınayaraq nəsrlə yazılan əsərləri ədəbi əsərlər hesab etməmişlər. Nəsrlə daha çox dini və elmi əsərlər yazılırdı. Divanların dibaçəsində, poemaların girişində yer alan nəsr yazılarından başqa müstəqil formada bədii şəkildə qələmə alınan nəsr nümunələri olduqca məhdud saydadır. Ədəbiyyat tariximizə nəzər salsaq görərik ki, Xaqaninin məktublarından sonra nəsr əsərlərinə M.Füzulinin yaradıcılığında rast gəlmək olar.

Orta əsrlər Azərbaycan ədəbiyyatında nəsr qolunun həm fars, həm də anna dilində nümunələri yaranırdı. Məhəmməd Füzulinin yaradıcılığı bu baxımdan diqqəti cəlb edir. «Nəzmi-nazik» yaratmaq ustadı hesab olunan dahi şairin farsca yazdığı «Rindü Zahid», «Səhhət və Mərəz» əsərlərindən başqa anna dilində nəsr nümunələri də vardır. Onun «Şikayətnamə» və digər məktubları, Divanlarının və «Leyli və Məcnun» poemasının dibaçələri, məqtəl əsərləri içərisində mühüm yer tutan «Həqiqətüs-süəda» əsəri nəsrimizin dəyərli nümunələridir. «Şikayətnamə» məktub formasında yazılan hekayədir. Bü hekayədə nəzm parçaları da vardır. «Həqiqətüs-süəda» iri həcmli nəsr əsərləridir. Əsər səcli nəsrlə yazlıb, ərəb, fars sözləri və izafətlər çox işlənsə də ideya və mövzusu, sənətkarlıq baxımından nəsr tariximizin dəyərli örnəkləridir.

Azərbaycan ədəbiyyatında yeni ədəbiyyata keçid, orta əsrlərin son dövrü adlandırılan XVII-XVIII əsrlər ədəbiyyatı xüsusi bir mərhələdir. Bu mərhələ tədqiqatçıların tədqiqlərindən nəsr qolunun xüsusi inkişaf yoluna qədəm qoyması mövzu kimi dəyərləndirilir. Həqiqətən də bu dövrdə yaranana nəsr əsərləri canlı xalq dilində, yad ünsürlərdən az istifadə olunaraq yazılırdı. Məhəmmədin «Şəhriyar» əsəri janrına görə romanın tələblərinə cavab verir. Dastan mənşəli əsər olan «Şəhriyar» əvvəlcə şifahi şəkildə mövcud olmuş, sonra dastan ömrünü yaşayaraq müəllif tərəfindən yazılı sənət nümunəsinə çevrilmişdir. Əsərdə müxtəlif xarakterli obrazlar aləmi, süjetin çoxşaxəli detallarla zənginləşməsi də onun janrının tələbindən irəli gəlmişdir.

Möhsün Nəsirinin «Lisomü t-teyr» əsəri müştərək mövzulardan sayılan «Tutinamə» mövzusunda yazılmışdır. Bu topluda olan hekayələr süjetinə görə müstəqil əsərlərdir. Müəllifin dili Məhəmmədin «Şəhriyar» əsərinin dilindən çətindir. Bunun səbəbi müəllifin sarayın zövqünü nəzərə almasındadır. Əsərdə həm alleqorik, həm də realist hekayələr vardır. Didiktik-nəsihətimiz əsərləri oxuyan hər bir şəxs ibrət dərsi almış, onlardan faydalanmışdır. Vəli Ərəşinin «Düzd və qazi» hekayəsi də bu dövrün məhsuludur. Hekayə canlı xalq dilində yazılmışdır. Hadisələr Bağdadddan cərəyan

etsə də, yazıçının dövrü üçün cəsarətli bir addım hesab olunur. Əsərin qəhrəmanları ayə, sur əvə hadisələrdən öz məqsədləri üçün istifadə etmişlər. Nəsr nümunələri ideya, mövzu, sənətkarlıq baxımından təhlil olunmuş və bu nəticəyə gəlmişəm ki, yeni tipli nümunələri XIX əsrdə deyil, orta əsrlərin son dövründə yaranmış və gələcək nəsr əsərlərinin yaranmasına müsbət təsir göstərmişdir.

Hekayə janrı epik növün ən çox yayılan janrıdır. Bu janrın əsas xüsusiyyəti onun yığcam olması, konkret zaman və məkan daxilində olan hadisəni əks etməsi, az sayda obrazların iştirakıdır. Hekayə müəllifləri kiçik həcmli epik əsərdə böyük həyat həqiqətlərini göstərərək yüksək sənətkarlıq nümayiş etdirmişlər. A.P.Çexov dahi sənətkar kimi rus ədəbiyyatında təkrarsız sənət nümunələri yaratmışlar. Lakin onun bir dənə də olsun iri həcmli əsəri yoxdur. Hekayə janrının tələbinə cavab verən bədii əsərlər yazmaq sənətkardan geniş müşahidə qabiliyyəti, istedad və bacarıq tələb etmişdir.

Orta əsrlərin son dövrü adlandırılan XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında bu janrın həm nəsrlə, həm də nəzmlə dəyərli nümunələri yaranırdı.

Fədainin «Bəxtiyarnamə» poemasında olan məzmun hekayələr Məhəmməd Əmaninin anna dilində yazdığı mənzum hekayələr bu dövrdə hekayə janrına olan maraqdan irəli gəlmişdir. M.Nəsiri «Lisomüt-teyr» adlı hekayələr toplusunda bu janrın maraqlı örnəklərini yaratmışdır. V.Ərəşinin «düzd və qazi» hekayəsi 1706-cı ildə qələmə alınmışdır. Yüksək sənətkarlıq nümunəsi sayılan bu hekayə Azərbaycan ədəbiyyatında yaranan Mirzə Cəlil, Y.Çəmənzəminli, Ə.Haqverdiyev hekayələrinin sələfidir. Ədəbiyyatşünaslığımızda A.Bakıxanovun «Kitabi-Əsgəriyyə» (1842), İ.Qutqaşınlının «Rəşid bəy və Səadət xanım» (1835) əsərlərini yeni tipli nəsrin ilk nümunələri hesab etmişlər. «Düzd və qazi» hekayəsinin nəşri və tədqiqi bu fikrin əsassız olmasını sübut etmişdir.

Azərbaycan ədəbiyyatının inkişafında epik janrda yazılmış əsərlərin xüsusi əhəmiyyəti vardır. Müasir ədəbiyyatşünaslığın qarşısında duran mühüm vəzifələrdən

biri klassik ədəbiyyatı yeni dünyagörüşlə araşdırmaqdan ibarətdir. Bu mənada aparılan elmi işlərin əhəmiyyəti vardır.

Məhcur Şirvaninin «Qisseyi - Şirzad» poeması ideya məzmun, mövzu və bədii xüsusiyyətlərinə görə ədəbiyyat tariximizdə xüsusi maraq doğurur. Lirik-epik poema olan «Qisseyi-Şirzad» əsəri XVIII əsrdə hakimiyyətə gələn Nadir şaha qarşı etirazın bədii təcəssümüdür. Əsərdə zülmə, şərə, ədalətsizliyə nifrət, həqiqətin təntənəsinə rəğbət vardır. Müəllif bu əsəri şifahi xalq ədəbiyyatı və klassik ədəbiyyat ənənələrindən faylaranaraq qələmə almışdır. Elmi işdə bu məsələ araşdırılmış, əsərin daha çox «Dədə Qorqud», «Əmir Arslan» və s. dastanları ilə bağlılığı, ortaq məqamları vurğulanmışdır.araşdırma zamanı belə qənaətə gəlmişik ki, əsərin müəllifi məhcur Şirvani poemanı qələmə alarkən qarşısında Füzulinin «Leyli və Məcnun» poeması və digər əsərlər olmuşdur. Müəllif xurşidbanu obrazının xarakter və xüsusiyyətlərini təlqin edərkən Füzulinin əsərlərindən tamamilə faydalanmışdır. Əsərdə --- dilindən deyilən sözlər, Füzulinin «Ananın nəsihəti» ilə demək olar ki, üst-üstə düşür.

Poemanın əsas surətləri – Şirzad, Xurşudbanu surətləri təhlil edilmiş, onların əsas xüsusiyyətləri ön plana verilmişdir. Əsərdə şah və vəzir obrazları ədalətli, ədalətsiz obrazlar kimi iki yerə ayrılmış və təhlil edilmişdir.

Elmi işdə poemanın dil-üsdlub xüsusiyyətlərinin araşdırılmasına geniş yer verilmişdir. Burada canlı danışıq dilindən istifadə olunması, --- sözləri və məsəllərdən faydalanma yollarına toxunulmuşdur. Əsərdə bədii təsvir və ifadə vasitələri nümunələrdə izah olunmuşdur.

XIII əsr Azərbaycan ədəbiyyatının əsas inkişaf xüsusiyyətlərindən biri də anadilli ədəbiyyatın yaranmasıdır. Burada lirik növlə yanaşı, epik şeirin də mükəmməl nümunələri yaranmışdır. Bu da anadilli ədəbiyyatın sonrakı inkişafına böyük təsir göstərmişdir. Bu dövrdə yaranmış əsərlər içərisində Y.Məddahın «Vərqa və Gülşa», S.Fəqihin «Yusif və Züleyxa» poemaları maraq doğurur.

Y.Məddahın ədəbiyyat tarixində qələmə aldığı bu əsər ideya-mövzu, bədii keyfiyyətlərinə görə seçilir.

Elmi işdə mövzunun ənənəvi mövzu olduğu , onun ərəb ədəbiyyatı ilə bağlılığı, «Urva və Əfra»nın ümumi süjeti ilə səsləşməsi araşdırılır. Burada həmçinin Y.Məddahın və Məsihinin eyni mövzuda olan əsərləri qarşılaşdırılmış, onlar arasında mövcud oxşarlıq və fərqlər üzə çıxarılmışdır. Lirik-epik poema olan əsərin həcmcə yığcamlığı qeyd göstərilmişdir. Əsərin surətlər aləmi təhlil olunmuşdur. Əsas surətlərin təhlilində digər poemalara müraciət ediləcək qarşılıqlı araşdırma aparılacaqdır. Poemanın dil-üslub məziyyətləri təhlil edilmiş, epik şeirin inkişafında əsərin yeri dəyərləndirilmişdir.

Elmi işdə poemanın orijinal əlamətləri qabardılmışdır. Nakam aşiqlərin həyatlarını dəyişdikdən sonra dirilmələri və onların qovuşması dini düşüncələrlə izah olunmuşdur.

Poemanın Azərbaycan ədəbiyyatında epik şeirin inkişafında rolu müəyyənləşdirilmiş və dəyərləndirilmişdir.

Suli Fəqihinin «Yusif və Züleyxa» poeması araşdırılarkən öncə bu mövzunun Şərq ədəbiyyatında işlənməsi və onun variantları barəsində məlumat verilmişdir.

Bu mövzunun türk ədəbiyyatında işlənməsi tarixinə nəzər salınmış, Əlinin və Mustafa Zəririn əsərləri ilə oxşar və fərqli cəhətləri araşdırılmışdır. Mustafa Zərirdən sonra ədəbiyyat tariximizdə bu mövzunu qələmə alan Suli Fəqihinin həyatı araşdırılmış, müəyyən nəticələr əldə edilmişdir. Poemanın əsas mövzusu məhəbbətdir. Elmi işdə məhəbbətə olan müxtəlif münasibətlər araşdırılmış, onun fəlsəfi mahiyyəti izah olunmuşdur. Əsərdə iki aşiq bir-birinin vüsalına satıb ailə həyatı qurduqdan və övladları olduqdan sonra ədədiyyətə qovuşurlar. Poemanın əsas surətləri ayrı ayrılıqda təhlil olunur. Həmçinin əsərdə sosial əqidəsizliyə münasibət bildirilmişdir. Elmi işdə poemanın bədii təsvir və ifadə vasitələri, vəzni nümunələrlə izah edilmişdir. Müəllifin xalq ədəbiyyatından faydalanması, canlı danışıq dilindən məharətlə istifadə etməsi araşdırılmışdır.

Nəticədə poemanın həm məzmun, həm də formaca, bədii keyfiyyətlərinə görə klassik epik şeirimizə, bədii fikir tariximizə yeni ideyalar gətirməsi vurğulanmışdır.

Anadilli ədəbiyyatın yaranması və inkişafında XIII-XV əsrlər müşüm hadisələr baş vermişdir. Məhz bu dövrdən anadilli epik şeir formalaşmış və yüksəliş keçirmişdir. Bu dövrdə bir çox əsərlər yaranmışdır. Onlardan Əlinin «Qisseyi - Yusif», «Dastani-Əhməd Hərami», Mustafa Zəririn «Yusif və Züleyxa», Xətai Təbrizinin «Yusif və Züleyxa», E.İ.Xətainin «Dəhnamə» əsərləri əhəmiyyətlidir və müasir ədəbiyyatşünaslıq prinsipləri baxımından yenidən araşdırılması aktualdır.

Azərbaycan maarifçiliyi və mili özünüdərk adlı tədqiqatda Azərbaycan maarifçiliyinin keçdiyi inkişaf yoluna nəzər salınır, onların ədəbi irsi dəyərləndirilməklə yanaşı Azərbaycan xalqının mili özünüdərkində, bir millət kimi formalaşıb təşəkkül tapmasında göstərdiyi əvəzsiz xidmət dəyərləndirilir.

Tədqiqatda bir daha göstərilir ki, mili özünüdərkin tarixi qədim dövrlərdə tayfa və tayfa birliyi formasında dərketmədən başlayır. Tayfa birliyi dedikdə daha çox «obuz» nəzərdə tutulurdu. Dilimiz də «Oğuz dilli» kii qəbul olunurdu.

İslamlaşma dövründə mili özünüdərketmə dini özünüdərketmə ilə eyniləşdi. O zamanlar babalarımız özlərinə «müsəlman», hətta dillərinə «müsəlman dili» , bəzən isə «türk dili» deyirdilər.

İlk dəfə XIX əsrin ortalarında Mirzə Kazımbəy (1802-1870) dilimizin dəqiqləşmiş adını «Əzık azerbaydjanskix törok» kimi vermişdi.

Tədqiqatda göstərilir ki, XIX əsrin sonu XX əsrin əvvəllərində maarifçiliyimizin cəhdi ilə xalqımızda mili düşüncə ilə dini düşüncəni ayırma prosesi başlandı. «Kəşkül» qəzeti mili adımızın müsəlman deyil, «azərbaycanlı» olduğuna aid xüsusi məqalələr çap etdirdi.

Həmin problem ilk əvvəl Cəmaləddin Əfqaninin irsi əsasında, Əlibəy Hüseynzadənin və onun müasirləri olan nəhəng maarifçilərimizin əvəzolunmaz fəaliyyəti nəticəsində mili özünüdərketmə və mili ideologiya olaraq eyniləşdirildi.

Onun formulu (modeli) verildi. Bu formul mili özünüdərketmə probleminə kompleks baxışdan ibarət idi: türkləşmə, müstəqilləşmə, islamlaşma.

1918-ci ildə mili özünüdərketmə formulu dövlət statusu aldı və müstəqilliyini yenicə quran dövlətimiz öz bayrağında bunu əks etdirdi.

Tədqiqatda Azərbaycan maarifçiliyinin ədəbi irsinin xalqımıza, millətimizə və dövlətçiliyimizə olan mili xidməti dəyərləndirilir. Göstərilir ki, millətlər öz mənliyini ancaq böyük fəlakətlər zamanında dərk edirlər. XIX əsrdə də azəri türklərinin mili varlığı farsçılıq və rusçuluq kimi ciddi təhlükə ilə üzləşdi. Maarifçilik onlara qarşı bir özünümüdafiə hərəkatı kimi xalqa öz kimliyini xatırladaraq onlarda türkçülük-azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna xidmət göstərdi. Tədqiqatda A.Bakıxanov, İ.Qutqaşınlı, M.F.axundov, H.Zərdabi kimi maarifçilərimizin ədəbi irsinə nəzər salınır və göstərilir ki, onlar Azərbaycançılığa nəzər salınır və göstərilir ki, onlar Azərbaycançılığı türkçülüyün ayrılmaz hissəsi kimi dərk etmişlər.

Onlar xalqın tarixi və taleyi ilə bağlı məsələlər qaldırır və onları xalq, millət miqyasında həll etməyə çalışırdılar.

2007-ci ildə aparılan tədqiqat M.F.Axudzadənin ədəbi irsinin millətin mili məninə xidmətinə həsr olunub. Tədqiqatda göstərilir ki, Azərbaycanda mili şüurun formalaşması XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərinə aid edildiyindən Axudzadənin əsərlərində mili şüur, millət anlayışlarına rast gəlirik. Onun əsərlərində rast gəldiyimiz «İslam xalqı», «İslam milləti», «müsəlmanlar» kimi ifadələr bütün müsəlman xalqlarını əhatə edirdi. M.F.Axudzadəni bütün Şərq xalqlarının gələcəyi düşündürürdü. Deməli o öz fəaliyyəti ilə bütün Şərq xalqlarının mili özünüdərkinə dəyərli töhfələr vermişdir. Bu bir inkaredilməz həqiqətdir ki, Axundov türkçülüyün beşiyi başında dayanmış elə böyük şəxsiyyətdir ki, onun mili mədəniyyətimizə xidməti zaman-zaman daha dərindən etiraf olunur. Təsadüfi deyil ki, bütün türk dünyasında türkçülüyün mənəvi atası sayılan Ziya Göyalp onu «böyük türkçü» adlandırmışdır. Türkçülük hərəkatının təşəkkülündən bəhs edərkən M.F.Axudovun

«Rusiyada yetişən iki böyük türkçüdən birincimi», «Böyük Azərbaycan türuçüsü», «Milliyyət hissi birinci olaraq bu ədibdə oyanmışdır» və s.kimi qənaətlər M.F.Axudov və türkçülük, Axudov və mili özünüdər» probleminə aydınlıq gətirməyi xeyli aktuallaşdırır. Biz M.F.Axudzadə türkçülüyünü və millətçiliyini ancaq C.Məmməquluzadə ilə müqayisə edə bilərik.

Onun öz xalqına ən böyük xidməti (türk dünyasına) anna dilində ilk dəfə Avropasayağı əsərlər yazmasından ibarət idi.

İlk dəfə olaraq Azərbaycan türkləri öz mili kaloriti ilə səhnəyə çıxır.

İslam fanatizminə qarşı barışmaz mübarizəsi, yeni əlifba uğrunda cəsarətli çalışmaları, xalqı lənətləyə-lənətləyə qəflət yuxusundan oyatmağa çalışması və s. amillər onu C.Məmməquluzadə millətçiliyi ilə müqayisə etməyə əsas verir.

M.F.Axudzadə öz dövründə inkişaf etmiş mili mətbuatı, sosial ədaləti və mili mənafeyi tmsil edən hər hansı təşkilatı əvəz etmişdir. Onun epostolyar fəlsəfi irsi dövrün siyasi təşkilatı o özü isə bizim ilk universitetimiz olub.

M.F.Axudov Şərq-Qərb sintezi ilə «Sökülən köhnə binanı necə tikməyi göstərən ilk memar, mühəndis rolunu» Azərbaycan ədəbiyyatında məharətlə oynamışdır.

Tədqiqatda ilk bədii nəsrin (povest janrının), ilk ədəbi tənqidin, ilk satirik publisistikanın da əsasının Axudov tərəfindən qoyulduğu vurğulanır.

2008-ci ilin elmi tədqiqat işi Nəcəf bəy Vəzirov yaradıxılığında mili özünüdərki araşdırır.

Tədqiqatda göstərilir ki, millilik təkcə mili xarakter deyil, həm də formanın, üslubun, poetikanın məzmununda özünü göstərir. Yüksək dərəcədə mili və yüksək dərəcədə realist sənətə ədəbiyyat eyni vaxtda çevrilir.

M.F.Axudov maarifçiliyinin ən yaxın mənəvi varisi olan N.Vəzirov (1854-1926) onun maarifçilik konsepsiyasına yeni bədii notlar gəlirdə. Həyatın, məişətin və əxlaqın realist səhnədəki əhatə dairəsini daha da dərinləşdirdi, ona yeni janrlar, üslub, dil fərdiliyi artırdı. N.Vəzirovun əksər pyeslərində biz köhnə dünyada ağlın faciəsini

görməklə yanaşı, «müsəlman avamlığı»nın təhlili ilə tənqidi arxasında onun dərdli ürəyinin sızıltısını eşidirik.(«Daldan atılan daş topuğa dəyər», «Adı var, özü yox», «Yağışdan çıxdıq yağmura düşdük» və s.).

«Yağışdan çıxdıq yağmura düşdük» (1895) komediyasında Hacı Qəmbərin illər uzunu topladığı sərvəti varlanmaq məqsədilə baramaya verib dənizdə batırdıqdan sonra dəli olması səhnəsinin ardınca müəllif əsərin əsas qəhrəmanı Əşrəf bəyi səhnəyə gətirir. «Müsəlman aləminin avamlığına yanan Əşrəf bəyin istədiyi odur ki, onun din qardaşları insaflı, mürvətli, rəhmli, elmli, tərbiyəli olsunlar. O, istəyir ki, «cəmi zəlaltdə olan müsəlmanlar» mədəni xalqlar sırasına çıxsınlar, onlar can deyib can eşitsinlər, doğruluq və ədalət öz yerini tapsın, insana qiymət verilsin və s.

Bu çıxışlar maarifçiliyin ümumi konsepsiyasından irəli gəlirdi. Maarifçilər üçün sinif anlayışı yox idi. Ümumi xalq, ümumi millət anlayışı var idi. Millətin ümumi mənafeyi aspektindən çıxış edən N.Vəzirov da xalqına mili birlik arzu edirdi. Xalqını sivill görmək istəyirdi.

Millətini, vətənini tam hüquqlu vətəndaş kimi görmək arzusu» digər maarifçilər kimi Vəzirovun da arzusu idi. Bunların yolu isə mili özünüdərkdən və ona konsepsiya kimi yanaşan maarifçilikdən keçirdi. Əşrəf bəydə xalqın acınacaqlı vəziyyətini duymaq hissi qüvvətli olsa da «müsəlmanı ayağa qaldırmağa» gücü və iqtidarı yoxdur.

Məişətdə, mənəviyyatda olan radikal yeniliyi müşahidə etməsi komediyanın yeniliyi idi. Çoxarvadlılıq həmin dövrə qədər təbii bir hal idisə, artıq bu gülməli bir məzhəkə kimi yarşılanırdı. Nadanlığın, avamlığın məzhəkələrini yaradan Vəzirov, «Müsibəti Fəxrəddin»də onların faciəsini verə bildi. Dərdin bəlanın müsibəti fonunda maarifçiliyin əxlaqi qayəsinin üstünlüyünü sübut etdi. Əsərin qəhrəmanı təkcə Fəxrəddin deyil, onun kimi qurbaqlar verən, ayılan və yenidən doğulmaq üçün dağılan narahat cəmiyyətin özüdür. O, cəmiyyət ki, hər cür işıq və maarif ziyasını zülmətdə qərq etməyə qadirdir. Onu ayıltmaq istəyən qüvvələri qurban üçün hədəf seçir. Əgər nadanlığa qarşı mübarizə Axudovda, Seyid Əzimdə, Sabirdə kəskin

forma almışdırsa, bu əsər nadanlığa açılan ən sərrast atəş idi. Tədqiqatda N.Vəzirovun publisistik fəaliyyəti də araşdırılır və onun dilimizin saflığı, millətimizin elmlənməsi üçün apardığı məqsədyönlü fəaliyyəti yüksək qiymətləndirilir.

XX əsr Azərbaycan ədəbiyyatının ən məşhur simalarından biri şair və dramaturq Hüseyn Caviddir.

1910-1918-ci illərdə şair bir sıra şeir və dram əsərlərinin – «Keçmiş günlər», «Bahar şəbnəmləri», «Ana», «Maral», «Şeyx ənan», «Şeyda», «Uçurum», «İblis» və s. (əsərlərini) yaratmışdır. H.Cavid ədəbi yaradıcılığa aşiqanə, lirik-romantik şeirlərlə başlamış, həm farsca, cəm də azərbaycanca şeirlər yazmışdır. «Mənim tanrım gözəllikdir, sevgidir» fikri onun həyata olan münasibətinin bədii ifadəsi idi.

Şairin lirik əsərləri öz ideya-bədii xüsusiyyətləri, təsvir vasitələri ilə klassik ədəbiyyata bağlı olsa da, onun lirikasında bədbinlik motivləri əsas yer tuturdu. Böyük şairin şeir yaradıcılığında lirik növün demək olar ki, bütün janr, şəkil vəznləri əhatə olunmuşdur. İstər əruz, istərsə də heca, hətta sərbəst şeirlərində ustad sənətkarların ruhu aydın duyulur. Cavid ömrü boyu axtarışda olan, inkişaf edən bir şair idi.

Akademik M.C.Cəfərov haqlı olaraq qeyd etmişdir ki, Hüseyn Cavidin lirikası əsasən süjetli əsərlərdən ibarətdir.

«Bir qızın son fəryadı», «Qüruba qarşı», «Bilməm ki, mən», «Məyus bir qəlbin fəryadı», «Son baharda» şeirləri bu fikri təsdiq edir.

H.Cavid istər kiçik həcmli, istərsə də böyük süjetli əsərlərində qanlı müharibələrə dərin nifrət vardır. Şair həyat və səadət tərəfdarı, qırğın və fəlakətlərin qəddar düşməni idi.

H.Cavidin ədəbiyyatda öz orijinal yolu və üslubu var idi. Dünya, insan, insanın arzuları, idrakı haqqında şübhəsizlik fəlsəfəsi Hüseyn Cavidin yaradıcılığında müəyyən iz buraxmışdır. Fikir, ideya, mətləb H.Cavid lirikasında əsas ünsürdür.

Şairin poetik üslübü həmişə aydın və sabitdir. H.Cavidin lirikasındakı məhəbbət motivləri şairin təsvir etdiyi lirik qəhrəmanın xarakterini bütün dolğunluğu ilə aşkara çıxarır.

M.Ə.Sabirin yaradıcılığı ilə Azərbaycan poeziyasının tamamilə yeni bir mərhələsi başlayır. O, həyat həqiqətini onun bütün xarakterik cəhətləri ilə, olduğu kimi ifadə etməyə çalışırdı.

Sabir yaradıcılığı həyatı güzgü kimi əks etdirirdi. O, həyat həqiqətini görür, bir vətəndaş kimi cəmiyyətin inkişafına mane olan yaramazlıqları, nöqsanları aradan qaldırmağa çalışırdı. Şairin yaradıcılığındakı mübarizlik xalqa arxalanmağından irəli gəlirdi. Sabir ictimai həyatdakı qüsurları sadəcə təsvir etməklə kifayətlənmir, onları aradan qaldırmaq, məhv etmək istəyirdi.

Sabir yaradıcılığındakı satira siyahısı, ictimai mahiyyət daşıyırdı.

Sabir ədəbiyyatımızda canlı xalq dilinin təbliğatçısı idi. O, ən mürəkkəb məsələləri belə sadə şəkildə, bədii təsvir vasitələrinin köməyi ilə izah edərək, öz oxucularına çatdırmağı bacarır. Sabir şeir dilini adi danışıq dili şəklində işlədir, ona görə də oxucu tərəfindən qəbul olunur, sevilir.

Dilin oynaqlığı, ahəngdarlığı təmin etmək üçün Sabir şeir formasına xüsusi fikir verir.

Ədəbiyyat tarixində satirik şair kimi tanınan Sabir, yaradıcılığının ilk dövründə klassik ədəbiyyatın təsiri altında qəzəllər yazmışdır. Şairin qəzəlləri bədii dil, üslub və məzmun etibarilə sonrakı satirik şeirlərindən ayrılır. Sabirin qəzəllərində ictimai motivlərin üstünlüyü şairin gələcəkdə realist-satirik şeir yoluna keçəcəyini xəbər verirdi.

Böyük sənətkar xalq yaradıcılığının bir çox cəhətlərini nəzərdən qaçırmamış, öz yaradıcılığında buna geniş yer vermişdir. Sabir şeirlərinin bir çoxunu xalq məsəlləri, atalar sözləri, bayatılar əsasında qurmuşdur.

Sabir ədəbiyyatda inqilabi satira kimi yeni bir ədəbi məktəbin banisidir. Sabir məktəbinin görkəmli nümayəndələri, şairin başladığı işi davam etdirən sənətkarlar yetişmişdir. Onun ölməz satiraları bu gün də müasirliyin və aktuallığını qoruyub saxlayır.

Azərbaycan realist ədəbiyyatının görkəmli nümayəndələrindən biri də molla-nəsrəddinçi şair Əli Nəzmidir. O, ədəbiyyatın müxtəlif janr və formalarında qələmini sınaqdan çıxarmış, satirik şeir, felyeton, mənzum hekayə, poema, xatirə və məqalələrn ibarət zəngin irs qoyub getmişdir.

Əli Nəzminin əsərləri xalq həyatı və məişətini realist şəkildə əks etdirir. Onun dili və üslubu, gülüş yaratmaq üsulları, satrik ifadə vasitələri zəngindir. Sadəlik, aydınlıq onun satiralarında əsas xüsusiyyət kimi özünü göstərir.

Əli Nəzminin «Sijimqulunamə» (1927), «Bəlkə bu yaxşı oldu» (1932), «Üç məşədi» (1935), «Satira mərmiləri» (1945), «Seçilmiş şeirlər» (1950), «Seçilmiş əsərləri» (1959), «Şeirlər» (1963), «Seçilmiş əsərlər» (1979), «Sijimqulu» (1979) adlı kitablar çapdan çıxmışdır.

Əli Nəzminin yaradıcılığının ilk illərindən qələmə aldığı şeirlər onun şikayət, hüzn, kədər hisslərini ifadə edir.

İlk əsərlərinin mühüm bir qismi xalqın acınacaqlı halından, dözülməz vəziyyətindən, ictimai münasibətlərindən bəhs etdiyi üçün şair onları «Müsibət nohələri» adlandırmışdır. Bu əsərlərdə şair xalqı incidən istismarçılara, cəmiyyətin hakitm təbəqələrinə qarşı nifrət hissi oyadır, zəhmətkeş xalqın taleyinə acıyır.

Yaradıcılığının ilk illərində Əli Nəzmi təkcə şeirlə deyil, eyni zamanda nəsrlə də maraqlanmış, publisist məqalələr və felyetonlar yazmışdır. Şeir yaradıcılığında olduğu kimi, burada da müəllifin əsas tənqid obyekti gerilik, cəhalət, nadanlıq, elmsizlik kimi nöqsanlar olmuşdur.

Əli Nəzmi mollanəsrəddinçi kimi, həm klassik Azərbaycan ədəbiyyatının satira ənənələri, həm də xalq yumoru ilə bağlı olmuşdur. Əli Nəzminin mənzum hekayələri də mövzu və süjetinə, bədii təsvir vasitələrinə, üslub xüsusiyyətlərinə görə xalq ədəbiyyatına çox yaxındır.

Müasirlik və aktuallıq Əli Nəzmi yaradıcılığının əsas xüsusiyyətlərindəndir.

# NƏTİCƏ

3 il ərzində kafedranın əməkdaşlarının bir sıra dərs vəsaitləri, metodik göstərişləri və proqramları çapdan çıxıb.

F,e.d. prof.Qara Namazovun «Azərbaycan uşaq ədəbiyyatı» adlı 27,75 çap vərəqlik, 444 səhifəlik kitabı çapdan çıxıb.

F.e.d., prof. Xalid Əlimirzəyevin «Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları» adlı 27 çap vərəqlik, 440 səhifəlik AMEA-ya təqdim olunmuş mühüm nəticə olan dərs vəsaiti işıq üzü görmüşdür.

F.e.d., prof. Baba Babazadənin «Ədəbiyyatda lirik növ» adlı 11 çap vərəqlik, 176 səhifəlik dərs vəsaiti çap olunub. Bundan başqa Ədəbiyyat nəzəriyyəsi elminin tarixi və metodologiyası» adlı 3,75 çap vərəqlik, 40 səhifəlik metodik göstərişi çap olunub.

F.e.n., dos. Məhərrəm Vəliyev «İ.Nəsiminin lirikası» adlı metodik göstəriş çap etdirib.

F.e.n., dos. Məti Bayramlı qiyabi şöbə üçün «Ədəbiyyatın tədrisi metodikası» adlı metodik vəsait çap etdirib.

## ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi 3 cilddə, III cild AEA nəşri, 1965.
2. Azərbaycan sovet ədəbiyyatı 2 cilddə, AEA, 1967.
3. İsmayılov Y. A Şaiqin ədəbi-bədii yaradıcılığı, B, 1963.
4. Saraclı Ə. A.Şaiqin həyat və yaradıcılığı, B, 1981.
5. A.Şaiq. Xatirələrim. B, 1961, 1971, 1981.
6. A.Şaiq. Əsərləri 5 cilddə Azərnəşr, 1971-1975.
7. Nərimanov N. Seçilmiş əsərləri. Bakı, 1973.
8. Məmmədov V. N.Nərimanov. bakı, 1957.
9. Məmmədov M. Nərimanov və anna dili. Bakı, 1971.
10. Köçərli F . Nəriman Nərimanov. Bakı, 1965.
11. Əhmədov T. Nərima Nərimanov. Bakı, 1977
12. Məmmədquluzadə C. Əsərləri. I cild, Bakı, 1966.
13. Vəliyev M. Cəlil Məmmədquluzadənin dramaturgiyası, Bakı, 1954.
14. Əlimirzəyev X. Problemlər və xarakterlər dramaturgiyası. Bakı, 1979.
15. Əliyev Y. Böyük yazıçı. Bakı, 1979.
16. İbrahimov M. Böyük demokrat. Bakı, 1957.
17. Mir Cəlal. Cəlil Məmmədquluzadə realizmi haqqında, Bakı, 1966.
18. Məmmədov M. Cəlil Məmmədquluzadənin bədii nəsri. Bakı, 1963.
19. Məmmədov K. Ə.Haqverdiyev. Bakı,1870.
20. Vəliyev M. Süleyman Sani Axundov. Bakı, 1956.
21. Zamanov A. Əməl dostları. Bakı, 1979.
22. Görkəmli nəzəriyyəçi alim. «Yazıçı və zaman». Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2008.
23. «Yazıçı və zaman» məcmuəsinin redaktorluğu. Bakı, 2008.

24. Nizaminin «Yeddi gözəl» poemasının Mir Cəlal tərəfindən nəsrlə tərcüməsinin redaktorluğu. Bakı, 2008.
25. Mir Cəlal Seçilmiş əsərləri, 4 cilddə Bakı, 1967-1969
26. Mir Cəlal Azərbaycanda ədəbi məktəblər, Bakı 2004
27. Mir Cəlal klassiklər və müasirlər Bakı, 1973.
28. Mir Cəlal müasirlərinin xatirələrində və yaradıcılığından örnəklər. Bakı 1998.
29. Məmməd Arif Seçilmiş əsərləri, I cild, Bakı 1967.
30. M.Rəfili «Ədəbiyyat nəzəriyyəsinə giriş» B, 1958.
31. C.Xəndan «Ədəbiyyat nəzəriyyəsi» B, 1958.
32. M.Cəlal, P.Xəlilov «Ədəbiyyatşünaslığın əsasları».Bakı 1988
33. X.Əlimirzəyev «Ədəbiyyatşünaslığın elmi və nəzəri əsasları» Bakı 2008
34. B.Babazadə «Ədəbiyyatşünaslığın metodoloji məsələləri «Bakı Universiteti nəşriyyatı» 2001.
35. M.Rəfili «Ədəbiyyat nəzəriyyəsinə giriş», B. 1958.
36. C.Xəndan «Ədəbiyyat nəzəriyyəsi» Bakı, 1958.
37. M.Cəlal, P.Xəlilov «Ədəbiyyatşünaslığın əsasları». Bakı, 1988.
38. X.Əlimirzəyev. «Ədəbiyyatşünaslığın elmi nəzəri əsasları». Bakı – 2008.
39. Baba Babazadə. «Ədəbiyyatşünaslığın metodoloji məsələləri». Bakı Universiteti nəşriyyatı, 2001.
40. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1981.
41. «Azərbaycan» jurnalı, 1988, №1.
42. Bayraməli Abbaszadə. Seçilmiş şeirlər. Bakı, 1964.
43. Bayraməli Abbaszadə. Seçilmiş şeirlər. Bakı, 1964.
44. Baba Babazadə. Ədəbiyyat nəzəriyyəsi elminin tarixi və metodologiyası. Bakı, 2008.
45. Baba Babazadə. Ədəbiyyatda lirik növ. Bakı, 2008.

46.Ədəbiyyatşünaslığın terminlər lüğəti. Bakı, 1978.
47.«Ədəbiyyat və incəsənət» qəzeti, 6 may, 1988.
48.Əli Nəzmi. Seçilmiş əsərləri. Bakı, 1979.
49.Əli Nəzmi. Satira mərmiləri. Bakı, 1979.
50.Əliqulu Qəmküsar. Seçilmiş əsərləri. Bakı, 1959.
51.Firudin Hüseynov. Əli Nəzmi. Bakı, 1970.
52.Firudin Hüseynov. Satira gülüşün qüdrəti. Bakı, 1981.
53.İslam Ağayev. Əliqulu Qəmküsar. Bakı, 1976.
54.Kamran Məmmədov. Ə.Haqverdiyev. Bakı, 1970.
55.Kamran Məmmədov. XX əsr Azərbaycan gülüşü. Bakı, 1989.
56.M.Ə.Möcüz. seçilmiş şeirlər. Bakı, 1954.
57.M.Rəfili. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958.
58.Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. Bakı, 2004.
59.Mir Cəlal. Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 2005.
60.Molla Nəsrəddinçi şairlər. Bakı, 1986.
61.Təhsin Mütəllimov. Ə.Haqverdiyevin poetikası. Bakı, 1988.
62.Xalid Əlimirzəyev. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı, 2008.
63.Zahirə Salmanova. XX əsr şeirində bədii gülüş. Bakı, 1994.
64.Fəqir Ordubadi. Ağlar qələm əlimdə. Yazıçı, Bakı, 1989.
65.F.M.Qasımzadə. Azərbaycan ədəbiyyatı tarixi. «Maarif» nəşr, Bakı, 1974.
66.Firudin bəy Köçərli. Azərbaycan ədəbiyyatı, iki cilddə, II c., Elm, Bakı, 1981.
67.Yavuz Axundov, İsa Həbibov. İşığa doğru. «Azərbaycan müəllimi» qəz., Bakı, 5.XI.1989, №89, səh.4.

68.Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Elm, Bakı, 1977.

69.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. BDU, Bakı, 1999.

70.Mirzə Ələsgər Növrəs. Şeirlər. Yazıçı, Bakı, 1985.

71.Firudin bəy Köçərli. Azərbaycan ədəbiyyatı, iki cilddə, II c., Elm, Bakı, 1981.

72.F.S.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. «Maarif» nəşr., Bakı, 1974.

73.N.Vəzirov. əsərləri. Elm, Bakı, 1977.

74.«Əkinçi» (1975-1877; tam mətni), Azərnəşr, Bakı, 1977.

75.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. BDU, Bakı, 1999.

76.Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Elm, Bakı, 1977.

77.Mirzə İsmayıl Qasir. Şeirlər. Yazıçı, Bakı, 1988.

78.F.S.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. «Maarif» nəşr, Bakı, 1974.

79.Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Elm, Bakı, 1977.

80.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. BDU, Bakı, 1999.

81.Məmmədzadə B.M.S.Ə.Şirvani anadilli şeirində səri bəhrinin səciyyəsi (Səri və münsərih bəhrlərində növ-variant dəyişikliyi). «Elm» qəz., Bakı, 07.08.2004, №23, səh.13.

82.Azərbaycan ədəbiyyatı tarixi. B., 1960.

83.Füzuli. «Şikayətnamə» B., 1991.
84.Füzuli. «Həqiqətüs-süəda» B., 1993.
85.H.Əfəndiyev. Azərbaycan bədii nəsrinin tarixindən. B., 1963.
86.H.Araslı. XVII-XVIII əsərlər Azərbaycan ədəbiyyatı tarixi. B., 1993.
87.Ə.Səfərli, X.Yusifli. qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. B., 1998.
88.Möhsün Nəsirinin «Lisomü t-teyr». B., 2002.
89.Məhəmməd. «Şəhriyar». B., 1987.
90.L.Əliyeva. Azərbaycan ədəbiyyatında bədii nəsr. B., 2002.
91.N.Cəfərov. füzulidən Vaqifə. B., 1991.
92.A.Məmmədov. Nəsrimizin dəyərli nümunəsi. B., 1982.
93.A.Məmmədov. Azərbaycan ədəbiyyatında şekayə. K., 1982.
94.V.Ərəşi. hekayeyi-düzdü-qazi. B., 1997.
95.A.Dadaşzadə. XVIII əsr Azərbaycan lirikası. B., 1982.
96.L.Əliyeva. Azərbaycan ədəbiyyatında hekayə janrı. BDU, Elmi Xəbərlər, 2003.
97.S.Səfərli. XVII-XVIII əsrlər Azərbaycan epik şeiri. B., 1987.
98.Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı (dərslik) Bakı, 1992, 1998.
99.XXII-XXIII əsrlər Azərbaycan epik şeiri . Bakı, 1982.
100. Araslı H. XXII-XXIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 1996.

Klassik Azərbaycan ədəbiyyatı
kafedrasının müdiri: prof.N.A.Paşayeva